AFFA

# AFFA-nın İnkişaf Strategiyası

## “Qələbəmiz hədəflərimizdə, inamımız gənclərimizə!”

# Strategiya layihəsi sıx əməkdaşlıq formatında hazırlanmışdır

AFFA

## Strategiya layihəsinin hazırlanmasında əsas rol oynamış amillər

Strategiya layihəsinin bütün bölmələri eyni **şablona** və **formata** (məs., Strateji İstiqamətlər – Əsas Sahələr və s.) əsasən hazırlanmışdır

Strategiya layihəsinin hazırlanması üzrə işlərin icra gedişatını izləmək, habelə müvafiq sualları müzakirə etmək məqsədilə **həftəlik koordinasiya iclasları** keçirilmişdir

«McKinsey» və «Double Pass» şirkətləri tərəfindən göstərilən **ixtisaslaşmış texniki-metodiki dəstək** bütün istiqamətlər üzrə işlərin səmərəli icrası üçün zəmin yaratmışdır

# Məzmun

A AFFA rəhbərliyinin ön sözü

B Strateji baxış, missiya, əsas hədəflər

C Strateji istiqamətlərin icmalı

D Mövcud vəziyyətin icmalı

E Strateji istiqamətlərin təfərrüatları

F Əsas layihələrin siyahısı



# B – AFFA-nın strateji baxışı və missiyası inklüziv və beynəlxalq səviyyədə uğurlu ekosistemin yaradılmasına yönəlib

## Strateji baxış

Peşəkar futboldan kütləvi futbola qədər bütün səviyyələrdə kütləviləşdirilməyə yönəlmiş inklüziv futbol mədəniyyətini, eləcə də bütün maraqlı tərəflərin yararlanacağı yüksək məhsuldarlıq mühitini yaratmaq

## Missiya

İnklüziv rəqabəti təmin edərək bir nəsildən digərinə ürəkləndirən vəhdəti təmin edən dayanıqlı və uğurlu futbol ekosistemini formalaşdırmaq, habelə yüksək ixtisaslı peşəkarların yetişdirilməsi və Azərbaycan futbolunun peşəkar bazar dəyərinin artması üçün əlverişli şərait yaratmaq



# B – AFFA-nın missiyasının reallaşdırılması Strategiyanın 5 əsas məqsədinin icrası hesabına təmin edilə bilər

AFFA

## Strategiyanın əsas hədəfləri

- Kişilərdən ibarət A milli komandanın FIFA reytinqində ən yaxşı 75, qadınlardan ibarət A milli komandanın isə ən yaxşı 50 komanda sırasına yüksəldilməsi bu strategiyanın uzunmüddətli hədəflərindəndir
- UEFA-nın klub reytinqində (kişilər) ilk 20-yə, qadın komandaları üçün isə ilk 40-yə daxil olmaq da uzunmüddətli hədəf olaraq nəzərdə tutulub
- Avropanın aparıcı klublarının diqqətini cəlb edə biləcək istedadlı azərbaycanlı futbolçular və məşqçi heyətini yetişdirmək üçün Azərbaycan Respublikasının yeni, innovativ Futbolun İnkişafı Mərkəzinin yaradılması
- Kişilərdən və qadınlardan ibarət aşağı yaş qrupu üzrə milli komandaların Avropa çempionatlarının final mərhələlərinə mütəmadi vəsiqə qazanması üçün rəqabətqabiliyyətliliyini təmin etmək
- Azərbaycanın peşəkar klublarının ümumi bazar dəyərini ikiqat artırmaq

# C – Uğura aparan yol 6 strateji istiqamətin reallaşdırılması ilə şərtləndirilir

**Bütün strateji istiqamətlər bir-biri ilə əlaqəlidir və uğurun əsasını təşkil edir.**

## Kütləvilik

**Futbola olan marağın artırılması, onun daim populyarlaşdırılması**

Sevimli komandalarını dəstəkləyən **futbol azarkeşləri və yerli komandalarda oynayan futbolçularla birgə vahid cəmiyyət yaratmaq**

## Təhsil

**Futbol mütəxəssislərinin inkişaf etdirilməsi**

**İnkişaf** və məhsuldarlıq yönümlü mühiti formalaşdırmağı bacaracaq mütəxəssisləri inkişaf etdirmək

## İnkişaf

**Regional və gənclər futbolunun inkişafı**

Akademiyalarda, peşəkar klublarımızda və milli komandalarda ən istedadlı oyunçularımız üçün **elit təcrübəni** təmin etmək

## Dayanıqlıq

**Maliyyə məsələləri**

AFFA-nın və peşəkar klubların **maliyyə sabitliyini** gəlir mənbələrinin artırılması vasitəsilə gücləndirmək

## İnfrastruktur

**Peşəkar və gənclər futbolunun infrastrukturunun yaxşılaşdırılması**

Futbol ekosisteminin bütün seqmentlərində **mövcud boşluqları müəyyən etmək və infrastrukturu inkişaf etdirmək**

## Dəstək

**İnklüzivliyin və sosial məsuliyyətin təmin edilməsi**

**Hər kəsin futbolla məşğul olmaq**, futbol tədbirlərində iştirak etmək imkanlarının əlçatanlığını təmin etmək

**İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası**

**Yeni strategiyanın icrasını nəzərə alaraq, Azərbaycanda futbolun inkişafına yönəlmiş iddialı, gələcəyə baxan və yenilikçi liderliyi təmin etmək**

# D – 1. Futbola olan marağın artırılması və populyarlaşdırılması

AFFA

| | A milli komanda (kişilər) (2024 Millətlər Liqası) | Premyer Liqa (23/24) (Ev oyunlarında ən çox və ən az azarkeş iştirak edən klublar əsasında) | Premyer Liqa |
|---|---|---|---|
| Orta hesabla bir oyunda azarkeş sayı | 5,953 | 1,550 | 22% - Premyer Liqaya maraq göstərən əhalinin payı |
| Qeydə alınmış maksimum | 11,435 | 4,106 | |
| Qeydə alınmış minimum | 1,900 | 577 | |

# D – 2. Futbol mütəxəssislərinin inkişaf etdirilməsi

| | 2021/2022 | 2022/2023 |
|---|---|---|
| Qeydiyyata alınmış kişi oyunçuların sayı | 11,059 | 10,716 |
| Qeydiyyata alınmış qadın oyunçuların sayı | 916 | 928 |
| Lisenziyalı məşqçilərin sayı | 803 | 1,042 |
| Bir oyunçuya düşən lisenziyalı məşqçilərin sayı | 0.07 | 0.09 |

# D – 3. Regional və gənclər futbolunun inkişafı

AFFA

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Komandanın göstəriciləri | UEFA Millətlər Liqası (C Qrupu)<br>3Q-1H-2M | UEFA Avropa çempionatının seçmə mərhələsi<br>2Q-1H-5M | UEFA Millətlər Liqası (C Qrupu)<br>0Q-1H-5M |
| FIFA Reytinqi | #123 | #117 | #117 |
| Populyarlıq | Qeydiyyatdan keçmiş oyunçular əhalinin 0,42%-ni təşkil edir | | |
| İştirak səviyyəsi | U-17 liqasında qeydiyyatdan keçmiş oyunçuların sayı U-13 liqası ilə müqayisədə 1.685 nəfər azdır | | |

# D – 4. Maliyyə məsələləri

**Ekosistem üzrə gəlirlər**
**150.6**
mln AZN

**AFFA-nın gəlirləri**
**35.5**
mln AZN

**Qrantlar**
**27.5**
mln AZN

Milli komanda oyunlarının teleradio yayımı
**4.6**
mln AZN

Kommersiya gəlirləri
**2.8**
mln AZN

Digər gəlirlər **0.6** mln AZN

**PL klublarının gəlirləri**
**115.1**
mln AZN

**Qrantlar**
**27**
mln AZN

Digər gəlirlər
**14**
mln AZN

Oyun günü gəlirləri
**2.1**
mln AZN

**Kommersiya**
**49**
mln AZN

UEFA mükafat vəsaiti
**23**
mln AZN

# D – 5. Peşəkar və gənclər futbolunun infrastrukturu

AFFA

## Milli komanda

**3 stadion**

A milli komanda tərəfindən istifadə edilir

**1 əsas təlim-məşq bazası – «Dalğa Arena» –** bütün milli komandalar tərəfindən istifadə olunur

## Peşəkar klublar

**34 klubun cəmi 5-nin minimum standartlara** cavab verən təlim-məşq bazası var

UEFA-nın tələblərinə cavab verən 2-ci və ya daha yüksək kateqoriyaya malik **7 stadion** mövcuddur

## Kütləvi futbol

**65 idman məktəbindən** (UGİM) **5-nin** futbol meydançası var

**"Məktəblərdə futbol" proqramına** cəlb olunmuş **50 məktəbdə** uşaqlar üçün futbol məşqləri keçirilir

# D – 6. İnklüzivliyin və sosial məsuliyyətin təmin edilməsi

AFFA

**6** qadın futbol klubu

**28** lisenziyalı qadın məşqçisi

**928** qeydiyyatdan keçmiş qadın oyunçusu

**4 qadın milli komandası** – U-15, U-17, U-19 və əsas milli komanda

## İnklüzivlik

## Sosial məsuliyyət

**Sosial məsuliyyət çərçivəsində təşəbbüslər 5 əsas kateqoriya** üzrə planlaşdırılır və icra edilir:

- **İrqçiliyə qarşı mübarizə**
- **Bərabərlik və inklüzivlik**
- **Ətraf mühitin mühafizəsi**
- **Futbol hər kəs üçün**
- **Uşaqların və gənclərin hüquq və mənafelərinin müdafiəsi**

# E – Strateji istiqamətlərin uğurla reallaşdırılması üçün aşağıdakı lahiyələrin icra olunması nəzərdə tutulub

AFFA

**Əsas sahələr və layihələr**

**26** Əsas sahə | **250+** Əsas layihə

| Sahə | Əsas sahə | Əsas layihə |
|---|---|---|
| Futbolun populyarlaşdırılması | 4 | 54 |
| Futbol mütəxəssislərinin inkişaf etdirilməsi | 3 | 45 |
| Regional və gənclər futbolu | 3 | 61 |
| Maliyyə məsələləri | 2 | 27 |
| İnfrastruktur | 7 | 20 |
| İnklüzivlik | 3 | 27 |

**İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası**
4 Əsas sahə
19 Təşəbbüs

# E – Strateji istiqamətlərin təfərrüatları (1/2)

X - Strateji istiqamət X.X – Əsas sahələr X.X.X – Elementlər X.X.X.X – Əsas layihələr

AFFA

| 1 | Futbola marağın və populyarlığın artırılması | |
|---|---|---|
| 1.1 | Brend və Marketinq | Əsas layihələr |
| 1.1.1 | Brend | 5 |
| 1.1.2 | Marketinq və kommunikasiya | 5 |
| 1.1.3 | Tədbirlərin təşkili | 5 |
| 1.2 | Oyun Günü Təcrübəsi | Əsas layihələr |
| 1.2.1 | Stadion təcrübəsi | 5 |
| 1.2.2 | Cəlbedici proqram | 5 |
| 1.3 | Azarkeşlərlə işin təşkili | Əsas layihələr |
| 1.3.1 | Azarkeş qrupları | 5 |
| 1.3.2 | Mükafatlar | 5 |
| 1.3.3 | E-Sports | 4 |
| 1.4 | Kütləvi futbol və məktəblər | Əsas layihələr |
| 1.4.1 | Kütləvi Futbolun Mərkəzləşdirilmiş İdarə Edilməsi | 5 |
| 1.4.2 | Regional Kütləvi Futbol Proqramı | 5 |
| 1.4.3 | Məktəblərdə futbol | 5 |

| 2 | Futbol mütəxəssislərinin inkişaf etdirilməsi | |
|---|---|---|
| 2.1 | Futbol İnkişaf Mərkəzi | Əsas layihələr |
| 2.1.1 | Konsepsiyanın hazırlanması | 5 |
| 2.1.2 | Əməliyyatlar | 5 |
| 2.2 | Mütəxəssislər və könüllülərin inkişafı | Əsas layihələr |
| 2.2.1 | Ehtiyacların təhlili | 4 |
| 2.2.2 | Rəqəmsal həllər | 5 |
| 2.2.3 | Kursların planlaşdırılması və keçirilməsi | 6 |
| 2.2.4 | Sürətləndirilmiş inkişaf yolu | 5 |
| 2.2.5 | Bilik mübadiləsi və Davamlı Peşəkar İnkişafı | 5 |
| 2.3 | Elit səviyyəli inkişaf | Əsas layihələr |
| 2.3.1 | Fərdi inkişaf planları | 5 |
| 2.3.2 | Mentorluq dəstəyi | 5 |

| 3 | Regional və gənclər futbolunun inkişafı | |
|---|---|---|
| 3.1 | Peşəkar Futbol | Əsas layihələr |
| 3.1.1 | Piramida | 5 |
| 3.1.2 | Yarış formatı | 5 |
| 3.1.3 | Gəlirlərin bölgüsü və maliyyələşmə | 6 |
| 3.1.4 | Tənzimləmə və lisenziyalaşdırma | 5 |
| 3.2 | Milli komandalar | Əsas layihələr |
| 3.2.1 | Kadr təminatı | 5 |
| 3.2.2 | Yüksək məhsuldarlıq yönümlü mühit | 5 |
| 3.2.3 | Məhsuldarlığın təmin edilməsi prosesləri | 5 |
| 3.3 | Elit səviyyəli oyunçuların inkişaf etdirilməsi | Əsas layihələr |
| 3.3.1 | İnkişaf Yolunun planlaşdırılması | 4 |
| 3.3.2 | Elit akademiyalar | 6 |
| 3.3.3 | İstedadlı oyunçuların kəşf edilməsi | 5 |
| 3.3.4 | Elit gənclər yarışları | 5 |
| 3.3.5 | Futzal və çimərlik futbolu | 5 |

| İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası | | |
|---|---|---|
| A | AFFA-nın təşkilati strukturu | 7 |
| B | Normativ hüquqi baza | 5 |
| C | Üzvlərlə Münasibətlər | 4 |
| D | Dövlət Qurumları ilə Qarşılıqlı Əlaqə | 3 |

# E – Strateji istiqamətlərin təfərrüatları (2/2)

AFFA

X - Strateji istiqamət X.X – Əsas sahələr X.X.X – Elementlər X.X.X.X – Əsas layihələr

| 4 | Maliyyə məsələləri | |
|---|---|---|
| 4.1 | AFFA-nın gəlirləri | Əsas layihələr |
| 4.1.1 | AFFA-nın sponsorluq gəlirlərinin artırılması | 2 |
| 4.1.2 | AFFA və geniş mənada ekosistem üçün yeni kommersiya gəlir mənbələrinin yaradılması | 4 |
| 4.2 | Peşəkar klubların gəlirləri | Əsas layihələr |
| 4.2.1 | Peşəkar klubların sponsorluq gəlirlərinin artırılması | 4 |
| 4.2.2 | Bilet satışlının artırılması | 7 |
| 4.2.3 | Oyun günlərində gəlir imkanlarının artırılması | 5 |
| 4.2.4 | Təbliğatın artırılması | 3 |
| 4.2.5 | Stadiondan istifadə gəlirlərinin artırılması | 2 |

| 5 | İnfrastruktur | |
|---|---|---|
| 5.1 | Milli komanda – İnfrastruktur | Əsas layihələr |
| 5.1.1 | Milli komanda üçün infrastruktur imkanlarının artırılması | 2 |
| 5.1.2 | Milli komandanın infrastrukturunun keyfiyyətinin yaxşılaşdırılması | 1 |
| 5.2 | Peşəkar klublar - Fiziki infrastruktur | Əsas layihələr |
| 5.2.1 | Peşəkar klublar üçün infrastruktur imkanlarının artırılması | 3 |
| 5.2.2 | Peşəkar klubların infrastrukturunun keyfiyyətinin yaxşılaşdırılması | 2 |
| 5.3 | Kütləvi futbol - infrastruktur | Əsas layihələr |
| 5.3.1 | Kütləvi futbol infrastrukturunun imkanlarının artırılması | 2 |
| 5.4 | Rəqəmsal infrastruktur - Təməl | Əsas layihələr |
| 5.4.1 | Əsas rəqəmsal infrastrukturun yaradılması | 1 |
| 5.5 | Rəqəmsal infrastruktur - Məlumat bazası | Əsas layihələr |
| 5.5.1 | İnfrastruktur üzrə məlumat bazasının yaradılması | 3 |
| 5.5.2 | Futbolçularının məlumat bazasının yaradılması | 2 |
| 5.6 | Rəqəmsal infrastruktur - Proseslərin optimallaşdırılması | Əsas layihələr |
| 5.6.1 | Hesabatlıq və inzibati işlər üzrə ERP sistemlərinin yaradılması | 1 |
| 5.7 | Rəqəmsal İnfrastruktur - Vebsayt | Əsas layihələr |
| 5.7.1 | AFFA-nın rəsmi internet səhifəsinin müasirləşdirilməsi və azarkeşlərlə onlayn kanallar vasitəsilə qarşılıqlı əlaqənin fəallaşdırılması | 3 |

| 6 | İnklüzivlik və sosial məsuliyyət | |
|---|---|---|
| 6.1 | Qadın futbolu | Əsas layihələr |
| 6.1.1 | Futbolun tanınma səviyyəsinin yüksəldilməsi, məktəblər səviyyəsində fəallığın gücləndirilməsi | 3 |
| 6.1.2 | İdman perspektivləri və futbolda alternativ karyera seçimlərinin inkişaf etdirilməsi | 3 |
| 6.1.3 | Qadın futbolunun inkişafı üçün əlavə inkanların yaradılması | 5 |
| 6,2 | Əlillər Futbolu | Əsas layihələr |
| 6.2.1 | Oyunçuların inkişafının dəstəklənməsi | 3 |
| 6.2.2 | Əlillər futbolu üçün infrastrukturun yaradılması | 1 |
| 6.2.3 | Əlillər futbolu üçün maliyyələşmə | 1 |
| 6.3 | İnklüzivliyin təmin edilməsi və sosial məsuliyyət | Əsas layihələr |
| 6.3.1 | Cəmiyyət | 5 |
| 6.3.2 | Ətraf mühit | 6 |

| İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası | | |
|---|---|---|
| A | AFFA-nın təşkilati strukturu | 7 |
| B | Normativ hüquqi baza | 5 |
| C | Üzvlərlə Münasibətlər | 4 |
| D | Dövlət Qurumları ilə Qarşılıqlı Əlaqə | 3 |

# F – ƏSAS LAYİHƏLƏR

## 1. Futbola marağın və populyarlığın artırılması

# F – 1. Futbola marağın və populyarlığın artırılması (1/2)

AFFA

**1.1 Brend və Marketinq**

**1.2 Matç Günü Təcrübəsi**

**1.3 Azarkeşlərlə işin təşkili**

| Elementlər | Təsvir |
|---|---|
| **1.1.1 Brend** | Güclü və unikal brend və alt-brendlər yaratmaq. Bu istiqamətdə görülən tədbirlər müsbət ictimai imic yaradaraq azarkeşləri, eləcə də teleradioyayım şirkətlərini və sponsorları cəlb etməlidir. |
| **1.1.2 Marketinq və kommunikasiya** | Marketinq və kommunikasiya tədbirlərinin AFFA-nın geniş mənada strateji məqsədlərini dəstəkləməsini təmin etmək. Brendin mövqeləndirməsinə uyğun olaraq, bu işlər həm azarkeşlərin iştirakı ilə gəlirlərin artırılması, həm də media (KİV-lər) ilə əlaqələrin formalaşdırılması üçün zəmin yaratmalıdır. |
| **1.1.3 Tədbirlərin təşkili** | Azərbaycan futbolunun nüfuzunu artırmaq üçün beynəlxalq futbol tədbirləri təşkil etmək. Bu, ölkə daxilində futbolun və beynəlxalq səviyyədə ölkənin nüfuzunun artmasına kömək edə bilər. |
| **1.2.1 Stadion təcrübəsi** | Futbolun nüfuzunu yaxşılaşdırmaq üçün stadion təcrübəsini optimallaşdırmaq. Azarkeşlərin rahatlığını təmin etmək. |
| **1.2.2 Cəlbedici proqram** | Oyun günlərini daha fəal etməklə tamaşaçı sayının artmasına nail olmaq mümkündür. Artan tamaşaçı sayı klublarla azarkeş qrupları arasında əlaqələri daha da gücləndirə, habelə həm birbaşa, həm də dolayı gəlirləri artıra bilər. |
| **1.3.1 Azarkeş qrupları** | Mütəşəkkil azarkeş qrupları, azarkeşlərin təmsilçiliyinin gücləndirilməsində, komandaların gələcəyinə dair qərarların qəbul edilməsində və səs hüququnun verilməsində mühüm rol oynaya bilər. Bu, həmçinin idarəetmə orqanlarına və klublara azarkeş bazasını daha yaxşı anlamağa imkan verir ki, bu da gəlirin artırılması üçün imkanlar yaradır. |
| **1.3.2 Mükafatlar** | Həvəsləndirici aksiyalar klublara və assosiasiyalara azarkeş məlumatlarını toplamağa və xüsusi marketinq mesajlarını təqdim etməyə imkan verir. Daha yaxşı azarkeş təcrübəsini təmin etməklə tamaşaçıların sayının artırılması, azarkeşlərin diqqətinin qorunub saxlanılması və gəlirlərin artımı reallaşa bilər. |
| **1.3.3 E-Sports (elektron idman)** | Elektron idman təşkilatları ilə əlaqə quraraq, auditoriyanı genişləndirmək, azarkeş qrupları yaratmaq və gəlir mənbələrini şaxələndirmək AFFA brendinin həm yerli, həm də beynəlxalq miqyasda yenilikçi imicinin təşviqi üçün istifadə oluna bilər. |

# F – 1. Futbola marağın və populyarlığın artırılması (2/2)

AFFA

**1.4 Kütləvi futbol və Məktəblər**

| Elementlər | Təsvir |
|---|---|
| **1.4.1 Kütləvi Futbolun Mərkəzləşdirilmiş İdarə Edilməsi** | Uşaq-Gənclər və Böyüklər üzrə kütləvi futbol yarışları üçün vahid sistem yaratmaq. Mərkəzləşdirilmiş qaydalar vasitəsilə sistemin uyğunluğunu və keyfiyyətini təmin etmək |
| **1.4.2 Regional Kütləvi Futbol Proqramı** | Kütləvi futbol yarışlarının idarə olunması üzrə vəzifə və səlahiyyətləri regional federasiyalara həvalə etmək. Mərkəzləşdirilmiş idarəetmə çərçivəsində hər bir regional federasiyanın öz ehtiyaclarına uyğun olaraq fəaliyyətininin təmin edilməsi. |
| **1.4.3 Məktəblərdə Futbol** | Məktəblərlə əməkdaşlıq çərçivəsində  ölkədə futbolu bütün uşaqlar üçün əlçatan etmək. Futbolun faydalarını daha yaxşı anlatmaq, kiçik uşaqlara onu əyləncəli bir məşğulliyyət kimi təqdim etmək. |

# F – 1. Futbola marağın və populyarlığın artırılması

AFFA

## 1.1 Brend və marketinq

| Elementlər | Əsas layihələr |
|---|---|
| 1.1.1 Brend | 1.1.1.1 AFFA-nın əsas kommunikasiya və marketinq məqsədlərini təşkilatın strateji, institusional və biznes hədəfləri ilə uyğunlaşdırmaq, brend və marketinq strategiyasını istiqamətləndirəcək şəkildə müəyyən etmək. |
| | 1.1.1.2 AFFA üçün vizual kimlik, ətraflı brend qaydaları, məqsəd, strateji baxış, missiya, dəyərlər və s. bu kimi amilləri əhatə edən brend strategiyasını hazırlamaq |
| | 1.1.1.3 AFFA-nın ümumi uzunmüddətli strategiyasına uyğun olaraq müxtəlif brendləri müəyyənləşdirmək və təkmilləşdirmək. Bunlara kişi və qadın milli komandaları, Premyer Liqa, digər peşəkar və kütləvi yarışlar daxildir. |
| | 1.1.1.4 AFFA və alt-brendləri üzrə vahid brend strategiyasını yaratmaq, güclü brend hekayəsi (məs., manifest) ilə AFFA və alt-brendləri istədikləri şəkildə mövqeləndirərək, etimada əsaslanan münasibət və əlaqələri formalaşdırmaq. |
| | 1.1.1.5 AFFA-nın brendini bütün kanallarda möhkəmlətmək üçün davamlı kommunikasiya və müəyyən xüsusi brend kampaniyalarını həyata keçirmək (məs., forma təqdimatı, vacib oyunlardan əvvəl tədbirlər, ölkə səviyyəli tədbirlər və s.). |
| 1.1.2 Marketinq və Kommunikasiya | 1.1.2.1 Mövcud və hədəf auditoriyanın demoqrafik məlumatlarını və davranışlarını (nəyi və necə istehlak edirlər, niyə futbol oynayırlar və ya oynamırlar) öyrənmək üçün təhlil etmək |
| | 1.1.2.2 AFFA-nın nəznində və idarəetməsində olan kanallar (vebsayt, sosial media, mobil tətbiqlər), habelə müstəqil media vasitəsilə hədəf auditoriyanı cəlb etmək üçün marketinq strategiyasını formalaşdırmaq. |
| | 1.1.2.3 Ölkə daxilində futbol hekayəsinin yayılması və əhatəliliyinin artırılması üçün fərqli yarışlar üzrə yayım istehsalı standartlarını və oyundan kənar planları özündə ehtiva edən media və kontent (məzmun) strategiyasını formalaşdırmaq. |
| | 1.1.2.4 AFFA-nın fəaliyyətinin işıqlandırılması  üçün keyfiyyətli məzmun yaradılması və yayılması (məs., televiziya proqramları, mini-seriallar, uzunmüddətli sənədli filmlər və s.) istiqamətində media təşkilatları ilə əməkdaşlıq etmək. |
| | 1.1.2.5 Brendin ictimaiyyət tərəfindən qəbul edilməsi səviyyəsinin və imicinin artırılması məqsədilə, keçmiş futbolçuları, yerli sənətçiləri, musiqiçiləri və ictimai rəyə təsir göstərə biləcək digər tanınmış şəxsləri (inflüenserləri) müəyyən edərək onlarla əməkdaşlıq etmək. |

# F – 1. Futbola marağın və populyarlığın artırılması

AFFA

## 1.1 Brend və marketinq

| Elementlər | Əsas layihələr |
|---|---|
| 1.1.3 Tədbirlərin təşkili | 1.1.3.1 Beynəlxalq tədbirlərə ev sahibliyi etmək istəyini nəzərə alaraq, onların məqsədə müvafiqliyini qiymətləndirmək və ən uyğun olanları seçmək. |
| | 1.1.3.2 Maliyyə və infrastruktur məsələləri nəzərə alınmaqla, Azərbaycanda keçirilməsi mümkün olan beynəlxalq yarışların təşkil olunmasının texniki-iqtisadi mümkünlüyünü təhlil etmək. |
| | 1.1.3.3 Yuxarıda qeyd edilən iki məqam əsasında, Azərbaycanda təşkil olunması ən uyğun, ən arzuolunan və ən əlverişli tədbirləri müəyyənləşdirmək. |
| | 1.1.3.4 Bu cür tədbirlərin təşkili ilə əlaqədar qərar verən qurumlarla fəal şəkildə əlaqələr qurmaq. |
| | 1.1.3.5 Ən uyğun tədbirlər üçün təkliflər hazırlayıb aidiyyəti üzrə təqdim etmək. |

# F – 1. Futbola marağın və populyarlığın artırılması

AFFA

## 1.2 Matç günü təcrübəsi

| Elementlər | | Əsas layihələr |
|---|---|---|
| **1.2.1 Stadion təcrübəsi** | 1.2.1.1 | Oyun günü təhlükəsizlik məsələlərini təmin etmək üçün peşəkar klublarla və digər əlaqədar qurumlarla təlimlər təşkil etmək və bütün oyunlarda  vahid yanaşmanı təmin etmək |
| | 1.2.1.2 | Azarkeşləri stadionlara cəlb etmək və stimullaşdırmaq üçün müsbət kommunikasiya kampaniyaları yaradaraq, plan hazırlamaq və həyata keçirmək. |
| | 1.2.1.3 | Azarkeşlərlə tədbir təşkilatçıları arasında əsas əlaqə nöqtəsi olan Azarkeşlərin Əlaqələndiricisi (SLO-lar) rolunu gücləndirmək, polis və təhlükəsizlik işçiləri, matç əməliyyat rəhbərləri və SLO-lar arasında mütəmadi koordinasiya görüşlərinin təşkil edilməsinə dəstək göstərmək. |
| | 1.2.1.4 | Yüksək əhəmiyyətli oyunlarda azarkeşlərin rahatlığını təmin etmək məqsədilə tədbirlər planını hazırlamaq, bu plana təhlükəsiz tədbirlərinin qrafikinin tərtibi və xüsusi ailə yerlərini əlavə edərək, hər kəsə pozitiv futbol təcrübəsi təmin etmək. |
| | 1.2.1.5 | AFFA-nın oyunçuların qorunması proqramını beynəlxalq idarəetmə orqanları tərəfindən verilən prinsiplərə uyğun olaraq inkişaf etdirmək və həyata keçirmək, həmçinin klubları qabaqcıl dünya praktikası barədə məlumatlandırmaq. |
| **1.2.2 Cəlbedici proqram** | 1.2.2.1 | Oyunlara gedən və getməyən azarkeşləri araşdıraraq, qarşılaşdıqları çətinlikləri müəyyənləşdirmək və müvafiq həll yolları hazırlamaq. |
| | 1.2.2.2 | Yuxarıda qeyd edilən planın tərkibində oyun günlərinin əhəmiyyətini ictimaiyyətə vurğulayan marketinq kampaniyasını hazırlayıb həyata keçirmək. |
| | 1.2.2.3 | AFFA-nın futbol təqvimi üzrə bütün yarışlarda əsas tədbirləri müəyyənləşdirib, bu tədbirləri futbol festivallarına çevirərək tamaşaçıların sayını və fəallığını maksimuma çatdırmaq. |
| | 1.2.2.4 | Biletlərin satışı sistemini optimallaşdırmaq və klublara balanslı qiymətqoyma və marketinq strategiyalarının yaradılmasında dəstək göstərmək, nəticədə əlçatanlığı gücləndirməklə daha yaxşı şəraitin yaradılmasını təmin etmək. |
| | 1.2.2.5 | Stadionların və matçların  azarkeşlər üçün əlçatanlığını təmin etmək. Bütün azarkeşlər üçün əlçatanlığı təmin etmək məqsədilə ictimai nəqliyyat şirkətləri və müvafiq orqanlarla əməkdaşlıq yaratmaq. Oyun biletlərinin qiymətinə nəqliyyatda gedişlə bağlı xərcləri də daxil etmək |

# F – 1. Futbola marağın və populyarlığın artırılması

AFFA

## 1.3 Azarkeşlərlə işin təşkili

| Elementlər | Əsas layihələr |
|---|---|
| 1.3.1 Azarkeş qrupları | 1.3.1.1 Mövcud azarkeş qruplarını və onlara mənsub olan fərdi azarkeşləri müəyyənləşdirib qeydiyyata almaq (uyğun olduqda). |
| | 1.3.1.2 Mövcud azarkeş qruplarının inkişafını və yeni qrupların yaradılmasını təşviq etmək üçün strategiya hazırlamaq və tətbiq etmək – məs., bilet satışı ilə bağlı imtiyazlar / güzəştlər, qrup satışlarını təşviq etmək, qrup şəklində iştirakı təmin etmək və s. |
| | 1.3.1.3 Klubları yerli azarkeş mərkəzlərinin yaradılmasına və oyunlarla əlaqədar qrup şəklində fəaliyyətlərinin təşkil edilməsini stimullaşdırmaq. Bu fəaliyyətlərə baner və bayraqların hazırlanmasından könüllü işlərə və sosial görüşlərə qədər müxtəlif tədbirlər daxildir. |
| | 1.3.1.4 Azarkeşlərin təkliflərini diqqətlə dinləyib nəzərə alaraq təcrübələrini yaxşılaşdırmaq üçün müvafiq mexanizm yaratmaq. |
| | 1.3.1.5 Azarkeş mədəniyyəti və hekayələri haqqında məzmunu AFFA və klubların kommunikasiya və marketinq strategiyasına daxil edərək azarkeşlərin oyunun əsas hissəsi olduğunu vurğulamaq. |
| 1.3.2 Mükafatlar | 1.3.2.1 Azərbaycan futbolu üçün Koorporativ Münasibətlərin İdarə edilməsi (CRM) sisteminin yaradılması və genişləndirilməsinə dair plan hazırlamaq, AFFA platformalarından və tədbirlərdən istifadə edərək yeni auditoriyaları cəlb etmək və artırmaq. |
| | 1.3.2.2 AFFA-nın CRM sistemini bütün satış platformaları (bilet satışı, məhsullar və s.) ilə Vahid Giriş (Single-Sign-On (SSO)) strategiyası vasitəsilə inteqrasiya etmək, azarkeşlərin rahatlığını təmin edərək, ölkə üzrə vahid azarkeş profilini yaratmaq. |
| | 1.3.2.3 AFFA ilə yerli klubları birləşdirəcək mərkəzləşdirilmiş CRM sisteminin perspektivliyini tədqiq etmək, onu yaradaraq tətbiq etmək, iştirakçıları cəlb etmək, məlumatların toplanması proseslərini optimallaşdırmaq və bütün tərəflər üçün satış imkanlarını yaxşılaşdırmaq. |
| | 1.3.2.4 Klublarla birlikdə azarkeşlərin iştirakını və oyunlara gəlmələri üçün üzvlük və/və ya loyallıq proqramının yaradılmasını nəzərdən keçirtmək, onları həvəsləndirmək. |
| | 1.3.2.5 AFFA/klublar məlumat bazasından istifadə edərək tərəfdaşları cəlb etmək üçün satış planını hazırlamaq, bununla da tərəfdaşlara hədəf auditoriyası ilə əlaqənin qurulması qaydasını nümayiş etdirmək |

# F – 1. Futbola marağın və populyarlığın artırılması

AFFA

## 1.3 Azarkeşlərlə işin təşkili

| Elementlər | | Əsas layihələr |
|---|---|---|
| 1.3.3 E-Sports (elektron idman) | 1.3.3.1 | AFFA yarışlarda iştirak edə biləcək rəqabətədavamlı komandalar üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini yaratmaq. |
| | 1.3.3.2 | Regional və milli səviyyələrdə yarışları (canlı tədbirlər daxil olmaqla) təşkil və təşviq etmək, əsas məqsəd olaraq milli çempionatın qaliblərini müəyyənləşdirmək və e-Milli Komandaya oyunçular seçmək. |
| | 1.3.3.3 | AFFA-nın ən fəal azarkeşlər kütləsini hədəfləyən “xəyali oyunlar”-a (fantazy football) (hər bir iştirkaçının seçdiyi tərkibdə “virtual” komandalardan ibarət xəyali liqa) üstünlük verilməklə, Azərbaycan Premyer Liqası komandalarının iştirakı ilə kompyuter oyunlarının sayını artırmaq məqsədilə müvafiq təşkilatlarla münasibətləri formalaşdırmaq və lisenziya müqavilələrini bağlamaq |
| | 1.3.3.4 | Ənənəvi olaraq yüksək fəallığı ilə tanınmış geymerləri (kompyuter oyun həvəskarları) milli futbolun populyarlaşdırılmasına cəlb etmək, geymerlər və sponsorlar tərəfindən AFFA-nın lisenziyalaşdırdığı oyunlar və yarışlar üzrə məzmunun (kontentin) formalaşdırılması və paylaşılması üçün əlverişli şərait yaratmaq |

# F – 1. Futbola marağın və populyarlığın artırılması

## 1.4 Kütləvi futbol və məktəblər

| Elementlər | Əsas layihələr |
|---|---|
| **1.4.1 Kütləvi futbolun mərkəzləşdirilmiş idarə edilməsi** | 1.4.1.1 Resursların strateji bölgüsünə dair əsaslandırılmış qərarların qəbul edilməsi üçün respublikada qeydiyyatlı və qeydiyyatsız futbolçuları müəyyənləşdirmək, habelə regionlar arasında fərqləri nəzərə alaraq istedadlı fərdlərin (oyunçuların) axtarışını həyata keçirmək |
| | 1.4.1.2 Rayonlar arasındakı fərqlərə xüsusi diqqət yetirilməklə, regionlar (rayonlar) ilə qarşılıqlı əlaqədə oyunçuların inkişaf etdirilməsinə dair kompleks strategiya və o cümlədən Kütləvi futbolun inkişafına yönəlmiş təşəbbüs və mexanizmləri formalaşdırmaq |
| | 1.4.1.3 U-7 və daha yuxarı səviyyədə yarışlar təşkil etmək. Qaydalar, yarışların sayı, hər bir yarışda iştirak edən komandaların sayı və bu yarışların coğrafi bölgələrini müəyyən edərək, kütləvi futbol səviyyəsində uzunmüddətli futbolçu inkişafı üçün ən yaxşı mühiti təmin etmək. Bu, yaşa və coğrafiyaya görə fərqlənməlidir. |
| | 1.4.1.4 Əlçatan və rahat onlayn sistemi yaratmaq, startap-ların ilkin kapitala çıxışını asanlaşdırmaq, habelə yaşayış məntəqələrində və məktəblərdə futbol-idman infrastrukturunun yaradılması vasitəsilə respublika ərazisində kütləvi futbolun (klublar, akademiyalar) əlçatanlıq səviyyəini yüksəltmək |
| | 1.4.1.5 Regional səviyyədə ən yaxşı inkişaf imkanlarını təmin etmək məqsədilə ölkə üzrə kütləvi futbol yarışlarının keyfiyyətini nəzarətdə saxlamaq və təmin etmək. |

# F – 1. Futbola marağın və populyarlığın artırılması

AFFA

## 1.4 Kütləvi futbol və məktəblər

| Elementlər | | Əsas layihələr |
|---|---|---|
| **1.4.2** **Regional kütləvi futbol proqramı** | 1.4.2.1 | Klublara veb-portal vasitəsilə idarəetmə, əməliyyat və texniki məsələlər üzrə dəstək göstərməklə regional federasiyalara yardım etmək |
| | 1.4.2.2 | Oyunçuların inkişafı üzrə ümumi meyarlara əsasən, standartlara uyğun olaraq hər bir regionda kütləvi futbolun inkişafına dair plan hazırlamaq |
| | 1.4.2.3 | Həvəskar və uşaq-gənclər statuslu yarışların keçirilməsini regional federasiyaların səlahiyyətinə vermək |
| | 1.4.2.4 | İstedadlı oyunçunun inkişafının bütün mərhələlərini özündə əks etdirən futbolçu yolunu formalaşdırmaq: ilk addımlarını yaşadığı bölgədə və ya yerli məktəbdə atmaq, sonrakı mərhələdə qeydiyyatdan keçmiş klublarla əməkdaşlıq çərçivəsində idman məktəblərinə keçmək, oradan isə respublika üzrə istedadlı oyunçuların müəyyən edilməsi üçün xab funksiyasını yerinə yetirən regional mərkəzə dəvət edilmək |
| | 1.4.2.5 | Oyunçuların idman göstəricilərinin izlənməsini rəqəmsallaşdırmaq, ucqar yaşayış məntəqələrində oyunçuların inkişafına mərkəzləşdirilmiş nəzarəti təmin etmək. |

# F – 1. Futbola marağın və populyarlığın artırılması

## 1.4 Kütləvi futbol və məktəblər

| Elementlər | Əsas layihələr | |
|---|---|---|
| 1.4.3 Məktəblərdə futbol | 1.4.3.1 | Təhsil Nazirliyi və digər maraqlı tərəflərlə əməkdaşlıqda oğlan və qız şagirdlər üçün milli məktəblərarası futbol strategiyasını və tədris proqramını yenidən nəzərdən keçirib optimallaşdırmaq. |
| | 1.4.3.2 | Strateji əsaslarla seçilmiş məktəblərlə tərəfdaşlıqda yerli ictimaiyyətin futbolun inkişafında fəallığını artırmaq üçün təşviqat tədbirlərini həyata keçirmək. Bu məktəblərdə proqram və işçi heyətinin inkişafını dəstəkləmək. |
| | 1.4.3.3 | Oyunçuların inkişafında differensiasiya aparılmaqla ixtisaslaşmış futbol növlərinin təşviq edilməsi məqsədilə məktəblərdə futzal və çimərlik futbolu seksiyalarını təşkil etmək |
| | 1.4.3.4 | Orta məktəblər və idman məktəbləri əsasında akademik təhsili yüksək səviyyəli futbol təlimi ilə birləşdirən idman akademiyalarını yaratmaq üçün ünvanlı investisiyalar cəlb etmək. |
| | 1.4.3.5 | Məktəblərarası futbol turnirlərinin yerli, regional və milli səviyyələrdə təşkilini təmin etmək, rəqabətədavamlı oyunların keçirilməsi üçün şərait yaratmaq, istedadlı oyunçuların aşkarlanmasını təmin etmək və regional səviyyədə gənclər futbolunun ümumi təşviqini və populyarlığını artırmaq. |

# F – ƏSAS LAYİHƏLƏR

## 2. Futbol mütəxəssislərinin inkişaf etdirilməsi

# F – 2. Futbol mütəxəssislərinin inkişaf etdirilməsi

AFFA

**2.1 Futbolun İnkişafı Mərkəzi**

**2.2 Mütəxəssislər və könüllülərin inkişafı**

**2.3 Elit səviyyəli oyunçuların inkişaf etdirilməsi**

| Elementlər | | Təsvir |
|---|---|---|
| 2.1.1 | **Konsepsiyanın hazırlanması** | Futbolun İnkişafı Mərkəzi üçün strategiya hazırlamaq. Mərkəz AFFA-nın uğurlu milli komandaları qurmaq, futbol mütəxəssislərini yetişdirmək hədəflərinə çatmasını sürətləndirən beynəlxalq səviyyəli bir akademiya olmalıdır. |
| 2.1.2 | **Əməliyyatlar** | Futbolun İnkişafı Mərkəzinin yaradılmasının konsepsiyadan reallaşdırmayadək bütün mərhələlərini əhatə edən əməliyyat planını hazırlamaq |
| 2.2.1 | **Ehtiyacların təhlili** | Mütəxəssislərin uzunmüddətli tələblərini təhlil etmək. Bu, futbolun yüksək səviyyəsindən kütləvi futbola qədər bütün aspektləri əhatə etməli və futbolun AFFA-nın qarşıdakı illər üçün ambisiyalarına uyğun olaraq inkişaf etməsinə imkan verməlidir. |
| 2.2.2 | **Rəqəmsal həllər** | Futbol mütəxəssislərinin idarə edilməsi və nəzarət edilməsini asanlaşdıran rəqəmsal həll yaratmaq. İdeal olaraq, bu həll, marketinq və azarkeş iştirakına nəzarət etmək üçün istifadə olunan hər hansı məlumat bazası ilə uyğun olmalıdır. |
| 2.2.3 | **Kursların planlaşdırılması və keçirilməsi** | Ehtiyacların təhlili əsasında, təqdim ediləcək çoxillik tədris proqramını hazırlamaq. Bu proqram, ixtisas və ya sahəyə, həmçinin kursun səviyyəsinə əsaslanaraq tərtib edilməlidir. |
| 2.2.4 | **Sürətləndirilmiş inkişaf yolu** | Mövcud işçi qüvvəsində yetərincə təmsil olunmayan və ya işçi qüvvəsinin inkişafını sürətləndirə biləcək potensiala malik olan qruplar üçün ixtisaslara, səviyyələrə və coğrafi bölgələrə uyğun sürətləndirilmiş inkişaf prosedurlarını yaratmaq. |
| 2.2.5 | **Bilik Mübadiləsi və Davamlı Peşə İnkişafı (DPİ)** | Ölkədə, peşəkar klublar və milli komandalar arasında, həmçinin ixtisaslar arasında sistemləşdirilmiş bilik mübadiləsi proqramını yaratmaq. |
| 2.3.1 | **Fərdi inkişaf planları** | Futbolun ən yüksək səviyyəsində çalışan və ya bu səviyyəyə çatmaq potensialı yüksək olan işçilər üçün onların inkişafını dəstəkləyən fərdi proqramlar hazırlamaq. Bununla yanaşı, bu proqramlar başqalarına və geniş futbol sisteminə də töhfə verməli və inkişaf etmələrinə kömək etməlidir. |
| 2.3.2 | **Mentorluq dəstəyi** | Futbol təsərrüfatında mövcud və gələcək liderlərə liderlik inkişafını, bilik mübadiləsini və strateji düşüncəni təşviq etmək üçün mentorluq dəstəyini təmin etmək. |

# F – 2. Futbol mütəxəssislərinin inkişaf etdirilməsi

AFFA

## 2.1 Futbolun İnkişafı Mərkəzi

| Elementlər | Əsas layihələr |
|---|---|
| **2.1.1 Konsepsiyanın hazırlanması** | 2.1.1.1 Azərbaycan futbolunun inkişafında mərkəzi rol oynayan Futbolun İnkişafı Mərkəzinin məqsədini, missiyasını və strateji hədəflərini müəyyənləşdirən hərtərəfli bir proqram yaratmaq. |
| | 2.1.1.2 Futbolun İnkişafı Mərkəzini tam məktəb təhsili, elit istedadlı oyunçuların inkişaf etdirilməsi, futbol ixtisaslaşması və kommersiya imkanları sahələrində hərtərəfli proqramlar təqdim edən çoxşaxəli müəssisə formasında təşkil etmək. |
| | 2.1.1.3 İdman-texniki və təhsil ehtiyaclarını qarşılayan infrastruktur barədə icmal hesabat və sahə planını hazırlamaq. Bu infrastruktur yataqxana, xüsusi məktəb və gələcək idman və futbol mütəxəssislərini hazırlayacaq yüksək səviyyəli təlim kampusunu (şəhərciyini / bazasını) əhatə edəcək. |
| | 2.1.1.4 Yeni Futbolun İnkişafı Mərkəzinin mövcud milli və regional futbol əməliyyatlarına təsirini qiymətləndirmək, yeni mərkəzin inteqrasiyasının mövcud strukturları dəstəkləməsini və təkmilləşdirməsini təmin etmək. |
| | 2.1.1.5 Futbolun İnkişafı Mərkəzinin maliyyə dayanıqlığını təmin edən maliyyə modelini yaratmaq, bununla yanaşı müxtəlif gəlir mənbələri, səmərəli xərclərin idarə olunması və tərəfdaşlıqların qurulmasını təmin etmək. |

# F – 2. Futbol mütəxəssislərinin inkişaf etdirilməsi

AFFA

## 2.1 Futbolun İnkişaf Mərkəzi

| Elementlər | | Əsas layihələr |
|---|---|---|
| 2.1.2 Əməliyyatlar | 2.1.2.1 | İstedadlı oyunçuların inkişafı üçün AFFA-nın strateji baxışı ilə uzlaşan effektiv inzibatçılıq, idarəetmə və rəhbərlik prosesini təşkil etmək. |
| | 2.1.2.2 | Elit oyunçuların və işçi heyətinin inkişaf etdirilməsi üçün yüksək məhsuldarlıq səviyyəsini təmin edən mühit yaratmaq, hazırlığı optimallaşdırmaq, milli və beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunmasını təmin etmək. |
| | 2.1.2.3 | Ən müasir tələblərə cavab verən infrastruktur yaratmaq və elit gənc oyunçuların inkişafı üçün beynəlxalq imkanları təmin etmək. |
| | 2.1.2.4 | Azərbaycanda yüksək səviyyəli  məşqçi hazırlığı üzrə kompleks proqram yaratmaq. Bu proqram futbolun bütün səviyyələrində keyfiyyətli məşqçilərin inkişafını təşviq edəcək və məşqçilik standartlarının yaxşılaşdırılmasına istiqamətlənəcək. |
| | 2.1.2.5 | Oyunçuların idman göstəricilərini və nəticələrini optimallaşdırmaq, rifahını yaxşılaşdırmaq və futbol sahəsində tədqiqatı genişləndirmək məqsədilə futbol proqramlarına idman sahəsində qabaqcıl elmi tədqiqat, oyunçuya qayğı, məlumat analitikası və innovativ texnologiyaları inteqrasiya etmək |

# F – 2. Futbol mütəxəssislərinin inkişaf etdirilməsi

AFFA

## 2.2 İşçi qüvvəsi və könüllülərin inkişafı

| Elementlər | Əsas layihələr |
|---|---|
| 2.2.1 Ehtiyacların təhlili | 2.2.1.1 Peşəkar, yarım-peşəkar, kütləvi futbol, hakimlik və idarəetmə sahələrində mövcud futbol işçi qüvvəsinin hərtərəfli təhlilini aparmaq |
| | 2.2.1.2 AFFA-nın strateji böyümə planlarına uyğun olaraq, az təmsil olunan sahələrə, kənd yerlərinə və qadın futbolu sektoruna xüsusi diqqət yetirilməklə, Azərbaycanın müxtəlif bölgələrində gələcək işçi qüvvəsi ehtiyaclarını proqnozlaşdırmaq |
| | 2.2.1.3 Planlaşdırılan vəziyyətlə ölkədə mövcud real vəziyyəti müqayisə etmək, təhlilin nəticələrini hazırlıq kurslarının və ixtisasların planlaşdırılması zamanı nəzərə almaq |
| | 2.2.1.4 Əsas maraqlı tərəflərlə, o cümlədən klublar, məktəblər, regional assosiasiyalar və ictimai təşkilatlarla əməkdaşlıqda işçi qüvvəsi ilə bağlı çətinliklər və imkanlar barədə məlumat toplamaq |
| 2.2.2 Rəqəmsal həllər | 2.2.2.1 Hazırlıq kurslarına qeydiyyatdan keçmək, tapşırıqları təqdim etmək və kvalifikasiyalarını izləmək üçün veb-portal yaratmaq |
| | 2.2.2.2 Tədrisin İdarə Edilməsi Sistemi (TİES) vasitəsilə qarışıq (məs., onlayn təhsil) tədrisin həyata keçirilməsi üçün imkan yaratmaq və istifadəyə başlamazdan öncə müvafiq keyfiyyətə nəzarəti həyata keçirmək. |
| | 2.2.2.3 Məzmun və iştirakçıların ehtiyaclarına əsaslanaraq, qarışıq tədris baxımından ən uyğun kursları müəyyənləşdirmək |
| | 2.2.2.4 Seçilmiş kurslar üzrə effektiv məzmunun yaradılması və təlimin keçirilməsi üçün uyğun yerli və beynəlxalq tərəfdaşlar tapmaq. |
| | 2.2.2.5 AFFA-nın standartlarına uyğunluğu təmin etmək və işçilərin zəruri ixtisaslara yiyələnməsini izləmək üçün platformada avtomatlaşdırılmış sertifikatlaşdırma və qaydalara uyğunluğun təmin edilməsi sistemini tətbiq etmək. |

# F – 2. Futbol mütəxəssislərinin inkişaf etdirilməsi

## 2.2 İşçi Qüvvəsi və könüllülərin inkişafı

| Elementlər | Əsas layihələr |
| --- | --- |
| **2.2.3 Kursların planlaşdırılması və keçirilməsi** | 2.2.3.1 ADBTİA (Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) ilə əməkdaşlıq çərçivəsində coğrafi baxımdan (yerli, regional, milli) işçi qüvvəsi ehtiyaclarına uyğun kurslar planlaşdırmaq. Bu zaman tədris yerini və şəxslərin gəldiyi coğrafi əraziləri də nəzərə alınmalıdır. |
| | 2.2.3.2 Hər bir kurs üçün uyğun tədris metodunu müəyyənləşdirmək, ümumilikdə tədris baxımından uyğun balansı təmin etmək (məs., əyani/onlayn/qarışıq təhsil). |
| | 2.2.3.3 Kursun planına uyğun olaraq, kursları keçirəcək təlimçilərin sayı və ixtisasları / təcrübələri üçün bir plan hazırlamaq |
| | 2.2.3.4 Təlimçi tələblərinə uyğun olaraq, kursları keçirəcək təlimçiləri inkişaf etdirmək və ya xaricdən dəvət etmək üçün plan hazırlamaq. |
| | 2.2.3.5 İdman Texniki Liderlik kurslarını təşkil etmək üçün digər yerli və beynəlxalq təhsil müəssisələri ilə tərəfdaşlıqlar yaratmaq. |
| | 2.2.3.6 Yeni inşa olunan Futbolun İnkişafı Mərkəzində dayanıqlı inkişaf modelinə uyğun olaraq milli və beynəlxalq səviyyəli tədbirlər təşkil etmək |

# F – 2. Futbol mütəxəssislərinin inkişaf etdirilməsi

## 2.2 İşçi Qüvvəsi və könüllülərin inkişafı

| Elementlər | | Əsas layihələr |
|---|---|---|
| **2.2.4 Sürətləndirilmiş inkişaf yolu** | 2.2.4.1 | ADBTİA (Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) ilə əməkdaşlıq çərçivəsində sürətləndirilmiş inkişaf proqramlarını hazırlamaq və təqdim etmək |
| | 2.2.4.2 | Qadınları və keçmiş oyunçuları futbol işçi qüvvəsinə daha geniş şəkildə inteqrasiya etmək üçün plan yaratmaq. Bu plan müvafiq səviyyələr və uyğun ixtisaslar üzrə kurslara cəlb edilməsinə fokuslanmalıdır. |
| | 2.2.4.3 | Futbol işçi qüvvəsində az təmsil olunan qruplar, o cümlədən qadınlar, ucqar bölgələrdən olan şəxslər və fiziki imkanları məhdud olanlar üçün xüsusi sürətləndirilmiş inkişaf proqramlarını layihələndirmək və həyata keçirmək. |
| | 2.2.4.4 | Geniş futbol təhsil proqramlarına daxil olmağı sürətləndirmək üçün sürətləndirilmiş ərizə prosesləri və xüsusi dəstək təqdim etmək. |
| | 2.2.4.5 | Yüksək potensiallı qruplar, məs., keçmiş oyunçular, digər idman növlərindən olan idmançılar və gənc məzunlar üçün profilli sürətləndirilmiş kurslar təklif etmək. |
| **2.2.5 Bilik mübadiləsi və Davamlı Peşə İnkişafı** | 2.2.5.1 | ADBTİA və beynəlxalq tərəfdaşlarla əməkdaşlıqda tədqiqat və innovasiyanın mərkəzində olduğu (rəqəmsal) Milli Bilik Mübadiləsi Mərkəzini yaratmaq. Mərkəz Azərbaycandakı klublar, mütəxəssislər və təhsil sahəsinin nümayəndələri arasında bilik mübadiləsini asanlaşdıracaq. |
| | 2.2.5.2 | Klublarla AFFA arasında təcrübə mübadiləsi sistemini inkişaf etdirmək. Nəticədə inzibati, texniki heyət, idman mütəxəssisləri və analitiklər milli komandalarda və digər klublarda müvəqqəti olaraq işləyərək təcrübələrini artıra bilərlər. |
| | 2.2.5.3 | İxtisaslararası təlimlər və seminarlar təşkil etmək. |
| | 2.2.5.4 | Beynəlxalq tərəfdaşlarla fəal şəkildə əlaqə qurmaq və Azərbaycanlı mütəxəssislərə digər ölkələrin təcrübəsindən, proqramlarından və şəbəkələrindən yararlanmaq imkanını yaratmaq, bununla yanaşı digər futbol federasiyaları, klublar və təhsil müəssisələri ilə beynəlxalq mübadilə proseslərini təşkil etmək. |
| | 2.2.5.5 | Ən son yerli və beynəlxalq yenilikləri, tədqiqatları və innovasiyaları paylaşmaq üçün futbol sahəsində bilik mübadiləsi çərçivəsində beynəlxalq konfrans təşkil etmək. |

# F – 2. Futbol mütəxəssislərinin inkişaf etdirilməsi

AFFA

## 2.3 Elit səviyyəli inkişaf

| Elementlər | Əsas layihələr |
|---|---|
| 2.3.1 Fərdi inkişaf planları | 2.3.1.1 Fərdi tədris planlarına əsasən dəstəkdən yararlanacaq şəxsləri müəyyənləşdirmək. |
| | 2.3.1.2 Fərdlərlə qarşılıqlı əlaqədə onların mövcud güclü və zəif tərəflərini özünü-qiymətləndirmə və kompleks (360 dərəcə) qiymətləndirmə vasitəsilə müəyyənləşdirmək. |
| | 2.3.1.3 Fərdlərlə qarşılıqlı əlaqədə fərdi fəaliyyət planlarını hazırlamaq və icrasına nəzarət etmək. |
| | 2.3.1.4 Fərdi dəstəkdən yararlanan şəxslər arasında tədris-hazırlıq qruplarını formalaşdırmaq, təcrübə mübadiləsi vasitəsilə inkişafın sürətləndirlməsi üçün şərait yaratmaq |
| | 2.3.1.5 Fərdiləşdirilmiş dəstəkdən faydalanan şəxslərin siyahısını müntəzəm olaraq nəzərdən keçirmək və uyğun olduqda şəxsləri cəlb etmək və ya uzaqlaşdırmaq. |
| 2.3.2 Mentorluq dəstəyi | 2.3.2.1 Futbol sahəsində yeni rəhbər kadrların təcrübəli rəhbərlərin biliklərindən faydalanmaları üçün şərait yaratmaq məqsədilə Futbol Liderləri üçün Milli Mentorluq Proqramını təsis etmək. |
| | 2.3.2.2 Futbolda liderlik, strategiya, idarəetmə və rəhbərlik mövzularına yönəlik təlimlər və seminarlar təşkil etmək. |
| | 2.3.2.3 Cari və gələcək liderlərin təcrübələrini paylaşa biləcəyi eynirütbəli (Peer to Peer) liderlik qruplarını yaratmaq. |
| | 2.3.2.4 Formalaşdırılmaqda olan rəhbər (liderlik) kadrlar heyətinin üzvləri üçün klubların və ya AFFA-nın ali rəhbər heyətinin üzvlərinin işini praktikada izləmək, çoxillik təcrübələrindən faydalanmaq imkanını yaradan proqram yaratmaq |
| | 2.3.2.5 Futbolun İnkişafı Mərkəzində “Futbolda Strateji Liderlik” mövzusunda beynəlxalq sammit təşkil etmək |

# ƏSAS LAYİHƏLƏR

## 3. Regional və gənclər futbolunun inkişafı

# F – 3. Regional və gənclər futbolunun inkişafı

AFFA

| Bölmə | Elementlər | | Təsvir |
|---|---|---|---|
| 3.1 Peşəkar futbol | 3.1.1 | **Piramida** | Futbol piramidasının yuxarı hissəsinin (məs., ümum-respublika yarışları və ya bir neçə rayondan klubların iştirakı ilə keçirilən yarışlar) strukturunu nəzərdən keçirib təkmilləşdirmək |
| | 3.1.2 | **Yarış formatı** | Milli / regionlararası (rayonlararası) liqalar və kubok yarışları üçün optimal yarış formatlarını yaratmaq. Yarış formatları idman və kommersiya amilləri ilə şərtləndirilməli, milli komandanın göstərici və nəticələri, oyunçuların inkişafı və gəlirin pay bölgüsü / maliyyələşmə ilə bağlı geniş strategiyalarla uzlaşmalıdır. |
| | 3.1.3 | **Gəlirlərin bölgüsü və maliyyələşmə** | Uzunmüddətli gəlirin pay bölgüsü və maliyyələşmə modelini yaratmaq. Model klubları futbolun uzun-müddətli perspektivdə inkişafını təmin edəcək qaydada (həm idman, həm də maliyyə baxımından) qərarlar verməyə stimullaşdırmalıdır. |
| | 3.1.4 | **Tənzimləmə və lisenziyalar** | Klubların lisenziyalaşdırılmasına əsaslanan uzunmüddətli tənzimləyici çərçivə yaratmaq. Normativ hüquqi aktların hazırlanması zamanı həm kişi, həm qadın futbolunun müxtəlif liqalarının xüsusiyyətləri nəzərə alınmalıdır. |
| 3.2 Milli komandalar | 3.2.1 | **Kadr təminatı** | Effektiv işə götürmə, işçilərin qorunub saxlanması və peşə inkişafı istiqamətində müvafiq tədbirlər görməklə AFFA-nın bütün milli komandaları ilə bağlı hədəflərini reallaşdırmağa müvəffəq ola biləcək işçi heyətini formalaşdırmaq. İşçi heyəti həm beynəlxalq, həm də yerli təcrübəyə sahib olmalıdır. |
| | 3.2.2 | **Yüksək məhsuldarlıq yönümlü mühit** | Komandaların futbol meydançasında uğuru üçün şərait yaradan mühit formalaşdırmaq. Milli komandaların (böyüklər və gənclər) məşqlərin və oyunların keçirilməsi üçün təşkil olunmuş maddi-texniki və infrastruktur imkanları onların inkişafı, yüksək nəticələrin əldə edilməsi üçün əlverişli şərait yaratmalıdır. İşə götürmə, məşqçilik, komanda əməliyyatları və məhsuldarlığın dəstəklənməsi sahəsində işlər texnoloji həllərin geniş şəkildə tətbiqi ilə həyata keçirilməlidir. |
| | 3.2.3 | **Məhsuldarlığın təmin edilməsi prosesləri** | Bütün növlər üzrə yüksək məhsuldarlığı stimullaşdıran prosesləri formalaşdırmaq və tətbiq etmək. Bunun hesabına mühitin keyfiyyəti yaxşılaşdırılacaq, yaş qrupları, böyüklər, kişi və qadınlar arasında zəruri sinxronlaşma təmin ediləcək. |

# F – 3. Regional və gənclər futbolunun inkişafı

AFFA

## 3.3 Elit səviyyəli oyunçuların inkişaf etdirilməsi

| Elementlər | | Təsvir |
|---|---|---|
| 3.3.1 | İnkişaf yolunun planlaşdırılması | Ən istedadlı gənc oyunçuların potensialını maksimum səviyyədə reallaşdırmaq üçün aydın inkişaf yollarını yaratmaq. Kütləvi futboldan ən yüksək liqaya, milli komandaya və daha yuxarı səviyyələrə qalxmaq üçün aydın inkişaf yolları olmalıdır. |
| 3.3.2 | Elit akademiyalar | Ən yaxşı gənc oyunçuların tam potensialına çatmasına kömək etmək üçün peşəkar klubların həvəsləndirildiyi ölkə miqyaslı akademiya ekosistemini yaratmaq. İnfrastruktur, işçi heyəti, inkişaf proqramları və oyun proqramları üzrə standartlar hazırlamaq |
| 3.3.3 | Elit istedadlı oyunçuların kəşf edilməsi | AFFA-nın ölkə üzrə gənclər və böyüklər arasında ən istedadlı oyunçuları aşkar edib izləməsini təmin edəcək prosesləri tətbiq etmək. Yüksək potensiallı oyunçuları keyfiyyətli inkişaf təcrübələri ilə təmin etmək. |
| 3.3.4 | Elit gənclər yarışları | Ölkənin ən istedadlı oyunçuları üçün mütəmadi olaraq birlikdə və bir-birinə qarşı oynaması üçün imkanlar yaratmaq. İstedadlı oyunçuların inkişafını stimullaşdıracaq 'ən yaxşıların qarşılaşması' mühitini yaratmaq. |
| 3.3.5 | Futzal və çimərlik futbolu | Respublikada ən istedadlı gənc oyunçuların inkişafına töhfə verə biləcək çimərlik futbolu və futzal üzrə milli strategiyaları hazırlamaq. Strategiyalarda maddi-texniki imkanlar / infrastruktur, yarışlar, inkişaf yolları və milli yığmalar ilə bağlı məsələlər öz əksini tapmalıdır. |

# F – 3. Regional və gənclər futbolunun inkişafı

## 3.1 Peşəkar futbol

| Elementlər | Əsas layihələr |
| --- | --- |
| 3.1.1 Piramida | 3.1.1.1 Uğurlu regional klubları yarış sisteminə daxil edərək peşəkar komandaların sayını artırmaq. Nəticədə, regional iştirakçılıq səviyyəsi yüksələcək, böyük şəhərlərdən kənarda olan istedadlı oyunçular üçün ən yüksək səviyyədə yarışmaq imkanları yaradılacaq. |
| | 3.1.1.2 Klubların peşəkar liqalar arasında, habelə peşəkar və həvəskar liqalar arasında daha yüksək və ya daha aşağı pilləyə keçidi ilə bağlı mexanizmləri nəzərdən keçirmək və optimallaşdırmaq, keçidin rəqabətli şərtlərə əsasən həyata keçirilməsini təmin etmək. |
| | 3.1.1.3 Peşəkar klubların B komandaları / əvəzedici komandaları üçün strukturdakı uyğun yer təmin etmək, beləliklə, oyunçuların davamlı əsasda inkişaf etdirilməsini təmin etmək. |
| | 3.1.1.4 Liqa səviyyəsində istedadlı oyunçuların inkişafını stimullaşdıran, həmçinin gənc oyunçuların əsas komandalara inteqrasiyasını təşviq edən qaydaları tətbiq etmək. |
| | 3.1.1.5 Qadın futbolunun kompleks piramidasını hazırlamaq və inteqrasiya etmək |
| 3.1.2 Yarış formatı | 3.1.2.1 Qabaqcıl dünya praktikasını nəzərə alaraq, Peşəkar Yarış Formatını təkmilləşdirmək, bununla yanaşı aşağıdakı amilləri nəzərə almaq: (1) İdman məhsulunun keyfiyyəti, (2) Risklərin qiymətləndirilməsi (3) Azarkeşlərin fəallığının gücləndirilməsi məqsədilə əlaqələrin qurulması. |
| | 3.1.2.2 Bütün peşəkar liqalarda komanda və oyunların sayını optimallaşdırmaq, oyunçuların inkişafı üçün əlverişli şərait yaratmaq |
| | 3.1.2.3 Futbol prinsiplərinin işləməsi ve azarkeşlərin oyunlara marağının artırılması məqsədi ilə, liqadan düşmə və liqaya yüksəlmə mexanizmlərinin təsdiqlənməsi |
| | 3.1.2.4 Güclü komandalar arasında matçların sayını artırmaq üçün mexanizm yaratmaq. Bu mexanizm istedadlı oyunçuların inkişafını dəstəkləyəcək, yüksək rəqabətli oyunlara səbəb olacaq. |
| | 3.1.2.5 Hər bir liqa və ümumilikdə idman üçün yarış təqvimlərini yaratmaq, oyunçuların inkişafınını maksimuma çatdırmaq və gəlirlərin artmasını stimullaşdırmaq. |

# F – 3. Regional və gənclər futbolunun inkişafı

## 3.1 Peşəkar futbol

| Elementlər | | Əsas layihələr |
| --- | --- | --- |
| **3.1.3 Gəlirlərin bölgüsü və maliyyələşmə** | 3.1.3.1 | AFFA tərəfindən əldə olunan gəlirin peşəkar futboldaki müxtəlif maraqlı tərəflər arasında bölgüsünü və bunun üçün müvafiq meyarları müəyyən edən maliyyə modelini yaratmaq. |
| | 3.1.3.2 | Hər bir yarışda iştirak üçün meyarları müəyyənləşdirmək |
| | 3.1.3.3 | İdman göstəricilərinə (nəticələrinə) əsaslanan maliyyə mükafatları üçün meyarları müəyyənləşdirmək. |
| | 3.1.3.4 | Oyunçuların vətəndaşlığına əsaslanan maliyyə mükafatları üçün meyarları müəyyənləşdirmək. |
| | 3.1.3.5 | Oyunçuların yaşı və / və ya inkişaf yolu əsasında maliyyə mükafatları üçün meyarları müəyyənləşdirmək. |
| | 3.1.3.6 | Gəlirin pay bölgüsünə təsir edəcək bütün digər parametrlər üçün meyarları müəyyənləşdirmək |
| **3.1.4 Tənzimləmə və lisenziyalaşdırma** | 3.1.4.1 | Klubların lisenziyalaşdırılması ilə əlaqədar fəaliyyətin parametrləri və meyarlarını müəyyən etmək. |
| | 3.1.4.2 | Hər bir sahə üzrə müvafiq klublar üçün mütləq şərtləri müəyyənləşdirmək |
| | 3.1.4.3 | Uyğunluğa (öhdəliklərin icrasına) nəzarət mexanizmlərini müəyyənləşdirmək və müvafiq strukturları yaratmaq. |
| | 3.1.4.4 | Öhdəliklərin pozulması ilə bağlı prosedurları və sanksiyaları müəyyənləşdirmək |
| | 3.1.4.5 | Ən təxirəsalınmaz ehtiyac duyulan sahələrdə dəyişiklikləri sürətləndirmək üçün qısa müddətli həll yolları müəyyənləşdirmək. Bu sahələrə stadion və meydançaların texniki spesifikasiyaları, oyunçuların qeydiyyatı və transferləri, eləcə də matç günü heyəti və oyun sxemi daxil ola bilər. |

# F – 3. Regional və gənclər futbolunun inkişafı

AFFA

## 3.2 Milli komandalar

| Elementlər | Əsas layihələr | |
|---|---|---|
| 3.2.1 Kadr təminatı | 3.2.1.1 | Milli komanda fəaliyyətləri və daha geniş sahələr üçün mövcud işçi heyəti strukturunu qabaqcıl dünya praktikası (departamentlər və s.) ilə müqayisədə təhlil etmək |
| | 3.2.1.2 | Boşluqlar müəyyən edildikdə, oyunçuların inkişafı sahəsində xüsusi ixtisaslaşmış texniki heyəti işə qəbul etmək |
| | 3.2.1.3 | Regional mərkəzlərdən Futbolun İnkişaf Mərkəzi və milli yığmalarına oyunçuların keçməsini izləyən və nəzarət edən menecerləri təyin etmək. |
| | 3.2.1.4 | Əsas vəzifələr üçün vəzifə təlimatlarını, əməkhaqqı dərəcələrini və şəxsi keyfiyyətlərlə bağlı tələbləri müəyyənləşdirmək, uyğun olduqda ixtisaslaşmış mütəxəssisləri cəlb etmək. |
| | 3.2.1.5 | Gələcək liderlik rollarına uyğun yüksək potensiallı şəxsləri müəyyənləşdirmək və hazırlığını təşkil etmək |
| 3.2.2 Yüksək məhsuldarlıq yönümlü mühit | 3.2.2.1 | Yüksək keyfiyyətli təlim, bərpa və reabilitasiya şəraiti ilə dünya səviyyəli infrastruktur yaratmaq, tibbi və idman elmləri dəstəyi üçün xüsusi sahələr təmin etmək. Beləliklə, seçilmiş istedadlı oyunçuların və gənclər milli komandalarının yüksək məhsuldarlığı stimullaşdıran mühitdə təlim keçməsi üçün şərait yaradılacaq. |
| | 3.2.2.2 | Yüksək məhsuldarlıq mədəniyyətini formalaşdırmaq, güclü liderliklə ümumi bir məqsəd və ortaq dəyərləri yaratmaq və mükəmməllik naminə çalışacaq komanda üzvlərinin müəyyələnləşdirilməsi üçün seçim prosesi tətbiq etmək. |
| | 3.2.2.3 | Məhsuldarlığın (idman göstəricilərinin / nəticələrinin) izlənməsi, videoyazılışların təhlili və istedadlı oyunçuların kəşfi üçün müasir texnologiya və məlumat analitikası mühitini, habelə mərkəzləşdirilmiş məlumat bazasını yaratmaq. |
| | 3.2.2.4 | Davamlı məşqçilik sisteminə və ixtisaslaşmış məşqçi dəstəyinə əsaslanan məşqçi və oyunçu inkişafı fəlsəfəsini fərdi inkişaf planlarına (IDP) inteqrasiya etmək. |
| | 3.2.2.5 | Oyunçulara fiziki hazırlıq, zehni və emosional rifah, həmçinin qidalanma və bərpa sahələrində hərtərəfli dəstək təmin etmək. |

# F – 3. Regional və gənclər futbolunun inkişafı

## 3.2 Milli komandalar

| Elementlər | Əsas layihələr |
| --- | --- |
| **3.2.3 Məhsuldarlığın təmin edilməsi prosesləri** | 3.2.3.1 Milli futbol fəlsəfəsi, metodologiya və yaşa uyğun tədris proqramını yaratmaq, bütün yaş qruplarını uyğunlaşdırmaq və futbol ekosistemi (klublar, məktəblər, özəl akademiyalar və milli komandalar) üçün əlçatan etmək, kütləvi futboldan milli komandalara qədər davamlılığını (prosesin tətbiqinin fasiləsizliyini) təmin etmək. |
| | 3.2.3.2 Məktəblər, klublar və regional istedad mərkəzləri ilə koordinasiyalı şəkildə istedadlı oyunçuların axtarışı sistemini (skautinq) yaratmaq. Bu sistem yüksək potensiala və idman göstəricilərinə sahib olan istedadlı oyunçuların milli komanda məşqçilərinin diqqətinə çatdırılmasını təmin etməlidir. Əlavə olaraq, məktəblər və regional istedad mərkəzlərindən ən istedadlı oyunçuların qiymətləndirilə biləcəyi mütəmadi əsasda tədbirlər (turnirlər, düşərgələr və s.) təşkil etmək. |
| | 3.2.3.3 Bütün komanda fəaliyyətlərinin effektiv şəkildə həyata keçirilməsini təmin etmək üçün futbol əməliyyatları proqramını (o cümlədən matç cədvəlinin planlaşdırılması) tətbiq etmək. |
| | 3.2.3.4 Müxtəlif sahələri birləşdirən bir yanaşma hazırlamaq, Məhsuldarlığın İnkişafı Bölmələri (MİB) yaradaraq, mütəxəssis departamentlərinin bir-birinin uğuruna və milli komandaların inkişafına töhfə verməsini təmin etmək.  Əlaqəli departamentlər arasında Məşqçilik, Sağlamlıq və Məhsuldarlıq, Tibbi, İstedadlı Oyunçuların Kəşfi, Oyunçu Rifahı və Qayğısı ola bilər. |
| | 3.2.3.5 Milli komanda və klub səviyyəsində oyunçuların fərdiləşdirilmiş inkişaf planlarını və dəstəyi tətbiq etmək, beləliklə də oyunçuların tam potensiallarına çatmaq şanslarını artırmaq. |

# F – 3. Regionlarda və arasında gənclər futbolunun inkişafı

## 3.3 Elit səviyyəli oyunçuların inkişaf etdirilməsi

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 3.3.1 | İnkişaf yolunun planlaşdırılması | 3.3.1.1 | Ölkədə ən istedadlı gənc oyunçular üçün gənclər futbolunun inkişaf sistemini yaratmaq və mərkəzləşdirmək |
| | | 3.3.1.2 | Azərbaycan futbolu ekosisteminin, o cümlədən gənclər milli yığmaları, peşəkar klub akademiyaları, özəl akademiyalar, regionlar və həvəskar klublar daxil olmaqla, birlikdə necə fəaliyyət göstərməli və qarşılıqlı əlaqədə olmalı olduğunu formalaşdırmaq, vizuallaşdırmaq və kommunikasiya etmək. Bunun nəticəsində, istedadlı oyunçuların inkişaf yollarını ən effektiv şəkildə müəyyən etmək (növbəti iki slayda baxın). |
| | | 3.3.1.3 | Mərkəzləşdirilmiş yarışlara və proqramlara qatılmaq üçün ən yaxşı gənc oyunçuların inkişafını sürətləndirmək məqsədilə bölgələr arasında davamlılığı və keyfiyyəti yaratmaq |
| | | 3.3.1.4 | "Futbol pasportu" sistemini yaratmaq və oyunçunun fəaliyyətlərini və inkişafını effektiv şəkildə daim izləmək. (~ Oyunçu İdarəetmə Tətbiqi (PMA, EPPP)). |
| 3.3.2 | Elit akademiyalar | 3.3.2.1 | Elit akademiya sisteminin uzunmüddətli inkişafı üçün strateji plan yaratmaq. Bu plana bütün istedadlı oyunçuların inkişafı mühitlərini, o cümlədən peşəkar klublar, özəl akademiyalar, kütləvi klublar və məktəbləri daxil etmək. |
| | | 3.3.2.2 | Akademiya çərçivəsində oyunçuların inkişafına investisiya qoyuluşunu təşviq edən bir maliyyə və tənzimləmə modeli yaratmaq. Bu modelin tətbiqi keyfiyyətin qiymətləndirilməsi üzrə obyektiv və müstəqil tərəfdaşın dəstəyilə həyata keçiriləcək. |
| | | 3.3.2.3 | Klublar və akademiyalar üçün beynəlxalq standartlara əsaslanan və onların gənc oyunçuların inkişafı proqramlarının keyfiyyəti ilə əlaqəli qiymətləndirmə sistemini yaratmaq. |
| | | 3.3.2.4 | Klublara müvafiq məsul şəxslər və beynəlxalq standartlara cavab verən klubların inkişaf proqramları ilə dəstək göstərmək |
| | | 3.3.2.5 | Akademiyalarda yüksək keyfiyyətli məşqçi və texniki heyətini formalaşdırmaq. |
| | | 3.3.2.6 | Peşəkar liqalar üzrə akademiyanın fəaliyyətinə dair müddəaları müvafiq qaydalarda əks etdirmək. |

# F – 3. Regional və gənclər futbolunun inkişafı

AFFA

## 3.3 Elit səviyyəli oyunçuların inkişaf etdirilməsi

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 3.3.3 | Elit istedadlı oyunçuların kəşf edilməsi | 3.3.3.1 | Hər regiondakı ən istedadlı oyunçuların tapılıb AFFA-nın müvafiq oyunçuların inkişafı proqramına daxil edilməsi üçün milli seçim strategiyasını və fəlsəfəsini müəyyən etmək. |
| | | 3.3.3.2 | Elit akademiyaları və regionları öz ərazilərində ən istedadlı gənc oyunçuların kəşfinə stimullaşdırmaq |
| | | 3.3.3.3 | AFFA tərəfindən təlim keçmiş skautlardan ibarət, müxtəlif bölgələrə təyin olunmuş və bütün yaş qruplarını əhatə edən ölkə üzrə istedadlı oyunçuların kəşfi və müəyyənləşdirilməsi şəbəkəsini yaratmaq. |
| | | 3.3.3.4 | Ucqar bölgələrdə istedadlı fərdlərin ilkin kəşfi prosesini rəqəmsallaşdırmaq, beləliklə ən istedadlı gənc oyunçuların AFFA-ya vaxtında və müvafiq məlumatlarla təqdim olunmasını təmin etmək. |
| | | 3.3.3.5 | Ən istedadlı gənc oyunçuları onların inkişafı üçün ən uyğun mühitə cəlb etmək (məs., idman məktəbi, AFFA inkişaf mərkəzi, peşəkar klub akademiyaları, milli komandalar). |
| 3.3.4 | Elit Gənclər Yarışları | 3.3.4.1 | Peşəkar klublar, regionlar və əsas kütləvi futbol və özəl akademiya komandalarını nəzərə alaraq, müvafiq yaş qruplarına, onların maraqları və yaşına uyğun ardıcıl futbol proqramı yaratmaq. |
| | | 3.3.4.2 | Keyfiyyətin müstəqil qiymətləndirməsinə əsasən regional və milli gənclər yarışlarını təkmilləşdirmək, beləliklə də ən potensiallı oyunçularla ən yaxşı oyunçuların qarşılaşması üçün əsaslı yarış imkanlarını təmin etmək. |
| | | 3.3.4.3 | Gənc oyunçuların məşqlərə və evə gediş-gəliş vaxtının həddindən artıq olmaması üçün eyni zamanda ən istedadlı gənc oyunçuların bir-biri ilə və digər oyunçularla müntəzəm olaraq oynama imkanlarını maksimuma çatdırmaq |
| | | 3.3.4.4 | Ən istedadlı gənc oyunçuların qışda əsaslı oyun proqramı olmadan keçirdikləri müddəti azaltmaq və ya tamamilə aradan qaldırmaq. |
| | | 3.3.4.5 | Oyunçulara ildə ən azı iki dəfə digər ölkələrin ən istedadlı gənc oyunçularına qarşı oynamaq üçün imkanlar yaratmaq |

# F – 3. Regionlarda və arasında gənclər futbolunun inkişafı

## 3.3 Elit Oyunçu inkişaf etdirilməsi

| Elementlər | Əsas layihələr |
|---|---|
| **3.3.5 Futzal və çimərlik Futbolu** | 3.3.5.1 Regional mərkəzlərdən futzal və çimərlik futbolu üzrə infrastruktur və ixtisaslaşmış biliklər üzrə mərkəzlər qismində istifadə etmək. |
| | 3.3.5.2 Ölkə üzrə məktəblərarası yarışlar təşkil etmək və istedadlı oyunçuların axtarışını həyata keçirmək. |
| | 3.3.5.3 Məktəbdən başlayaraq regionlar vasitəsilə milli komandalara qədər oyunçuların inkişaf yolunu yaratmaq. |
| | 3.3.5.4 Milli komandaların beynəlxalq təcrübədən faydalanmasını təmin etmək. |

# F – Əsas layihələr

## 4. Maliyyə məsələləri

# F – 4. Maliyyə məsələləri - Ümumi

**4.1 AFFA-nın gəlirləri**

| | Elementlər | Təsvir |
|---|---|---|
| 4.1.1 | **AFFA-nın sponsorluq gəlirlərinin artırılması** | AFFA üçün sponsorların iştirakını artırmaq məqsədilə yeni sponsorluq modellərini yaratmaq və sponsorlar üçün dəyər təkliflərini yeniləmək. |
| 4.1.2 | **AFFA və geniş mənada ekosistem üçün yeni kommersiya gəlir mənbələrinin yaradılması** | Ekosistem daxilində məhsulların satışını bir mərkəzdə birləşdirmək və həm məhsullar, həm də satış nöqtələri vasitəsilə daha da genişləndirmək |

**4.2 PL klublarının gəlirləri**

| | Elementlər | Təsvir |
|---|---|---|
| 4.2.1 | **Peşəkar klubların sponsorluq gəlirlərinin artırılması** | Sponsorlar üçün stadionun adından istifadə hüquqları, sponsorluq paketləri və s. kimi müxtəlif məhsullar yaradaraq sponsorluq əlaqələrini gücləndirmək. |
| 4.2.2 | **Bilet satışlarının artırılması** | Azarkeşləri müxtəlif satış strategiyalar vasitəsilə təşviq etmək, biletləri digər məhsullarla birləşdirmək və kütləvi satışdan maksimum səviyyədə faydalanmaq |
| 4.2.3 | **Matç günlərində gəlir imkanlarının artırılması** | Azarkeşlərin xərclədikləri məbləğləri maksimuma çatdırmaq üçün matç günlərində əlavə imtiyazları təqdim etmək və stadion ərazisində yeni satış imkanlarını yaratmaq |
| 4.2.4 | **Əlçatanlığın və təbliğatın artırılması** | Vətəndaşların oyunlara gəlməsi üçün əlavə imkanlar yaratmaq, biletləri digər tədbirlərlə birləşdirmək və satış nöqtələrinin sayını artırmaq |
| 4.2.5 | **Stadiondan istifadə gəlirlərinin artırılması** | Matçların keçirilmədiyi günlərdə müxtəlif tədbirlər üçün stadionlardan istifadə edərək əlavə gəlir mənbələri müəyyən etmək |

# F – 4. Maliyyə məsələləri

## 4.1 AFFA-nın gəlirləri

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 4.1.1 | AFFA-nın sponsorluq gəlirlərinin artırılması | 4.1.1.1 | Sponsorluq əqdlərini artırmaq və şaxələndirmək üçün kateqoriyalı sponsorluq modellərini təqdim etmək (məs., Türk Hava Yolları Türkiyə milli yığmasının aviauçuşları ilə bağlı xərcləri qarşılayır). |
| | | 4.1.1.2 | Xüsusilə beynəlxalq tədbirləri hədəfləyərək milli komanda brendindən reklamlarda və tərəfdaşlıqlarda istifadə etmək, potensial sponsorlar üçün təqdim olunan dəyər təklifini zənginləşdirmək |
| 4.1.2 | AFFA və geniş mənada ekosistem üçün yeni kommersiya gəlir mənbələrinin yaradılması | 4.1.2.1 | AFFA və Azərbaycanda məşhur olan PL klublarının və beynəlxalq klubların məhsullarını satmaq üçün həm fiziki satış şəbəkəsini, həm onlayn vahid satış mərkəzini yaratmaq, satış nöqtələrinin təşkili istiqamətində aparıcı pərakəndə ticarət müəssisələri ilə əməkdaşlıq etmək. |
| | | 4.1.2.2 | Azarkeşlərə təklif olunan məhsul çeşidini genişləndirərək yeni məhsul kateqoriyalarını təqdim etmək (məs., papaqlar, qolbaqlar, fincanlar). |
| | | 4.1.2.3 | Etibarlı brendlərlə tərəfdaşlıqda məhdud sayda xüsusi məhsullar hazırlamaq (məs., xüsusi formanın cəmi 200 ədədinin istehsalı) |
| | | 4.1.2.4 | Milli komanda və klubların forma və məhsullarını, Azərbaycanlıların kompakt məskunlaşdığı ölkələrdə, məs., Türkiyə, Gürcüstan və Qazaxıstanda ixrac etmək (məs., Fenerium İstanbulda Anadolu komandalarının formalarını satır). |

## 4.2 PL klublarının gəlirləri

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 4.2.1 | **Peşəkar klubların sponsorluq gəlirlərinin artırılması** | 4.2.1.1 | Həm kiçik-orta sahibkarlıq subyektlərini, həm də iri şirkətləri sponsorluğa cəlb etmək üçün müxtəlif məbləğlərdə sponsorluq paketlərini yaratmaq |
| | | 4.2.1.2 | Sponsorluqlar vasitəsilə gəlirin artırılması üçün stadionun adından istifadə hüquqlarından yararlanmaq. |
| | | 4.2.1.3 | Stadionlardakı mağazalarda brendli məhsulların satışını təşkil etmək, alış-verişi təşviq etmək üçün hər matç günü üçün mağaza sahəsini icarəyə vermək |
| | | 4.2.1.4 | Cəmiyyətlərə və kiçik şirkətlərin səviyyələrinə fərdi brendinq imkanları qarşılığında mikro-sponsorluq təkliflərini təqdim etmək (məs., azarkeşlər stadionda öz adını daşıyan oturacaq hüququnu ala bilər). |

## 4.2 PL klublarının gəlirləri

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 4.2.2 | Bilet satışlarının artırılması | 4.2.2.1 | Ev yarışlarını UEFA matçları ilə əlaqələndirən və yerli turnir oyunlarına qatılmağa görə xallar verən, UEFA yarışlarının biletlərinə toplanmış xallar müqabilində endirimlərin əldə edilməsi üzrə üzvlük sistemini yaratmaq |
| | | 4.2.2.2 | UEFA matçlarını və 4-5 yerli yarış matçını qruplaşdıran kiçik bilet paketlərini yaratmaq. |
| | | 4.2.2.3 | Korporativ müştərilərə bilet paketlərinin satışı vasitəsilə şirkətlərin işçilərinin xüsusi güzəştlərlə mükafatlandırmasına imkan vermək və klubların əlavə gəlir mənbələrindən faydalanmasını təmin etmək. |
| | | 4.2.2.4 | Mövsüm üzrə biletləri təqdim edərək, mövsümdən əvvəl satışları prioritetləşdirmək, ev yarışlarını beynəlxalq matçlarla birləşdirərək satışları artırmaq. |
| | | 4.2.2.5 | Yerli brendlərlə tərəfdaşlıqda bilet alıcılarına xüsusi endirimlər təklif etmək (məs., bilet sahibləri üçün yemək çatdırılmalarına 10%-lik endirim). |
| | | 4.2.2.6 | Klublar üçün beynəlxalq yoldaşlıq turnirlərini təşkil etmək, sponsorları tədbirin əsas maliyyə tərəfdaşları qismində ictimaiyyətin diqqətinə təqdim etmək (məs., Vodafone Kuboku, Audi Kuboku). |
| | | 4.2.2.7 | Oyunlardan əvvəl canlı musiqi və əyləncə tədbirlərini təşkil etmək, DJ, mahnı və rəqs nümayişləri ilə azarkeşlərin oyunlara tamaşa ilə bağlı əyləncə hissini artırmaq |

AFFA

## 4.2 PL klublarının gəlirləri

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 4.2.3 | Matç günlərində gəlir imkanlarının artırılması | 4.2.3.1 | Matç günü paketlərinin bir neçə səviyyəsini təqdim etmək, standart biletlərə müxtəlif əlavə imkanlar əlavə etmək (məs., klub əfsanələri ilə görüş, seçilmiş oyunçuların imzası ilə forma, sirli məhsul qutusu və s.). |
| | | 4.2.3.2 | Yerli satıcılarla tərəfdaşlıqda stadionda müxtəlif qidaların və içəcəklərin satışını təşkil etmək. |
| | | 4.2.3.3 | Brendlərlə tərəfdaşlıqda stadionlarda ictimai iaşə seqmentinin inkişafını dəstəkləmək, brendlərə qarşılıqlı qaydada stadionun adından istifadə hüquqlarını təklif etmək (məs., Allianz Arenada Audi/Adidas Lounge). |
| | | 4.2.3.4 | Biletlərin qiymətlərini tələbata uyğun olaraq tənzimləmək, tələbatın yüksək olduğu matçlar üçün bilətlərin qiymətlərini qaldırmaq. |
| | | 4.2.3.5 | Matç günü təcrübəsini təmin etmək üçün eksklüziv keçidlər təqdim etmək (məs., sürətli keçid, parklanma icazəsi və s.). |
| 4.2.4 | Əlçatanlığın və təbliğatın artırılması | 4.2.4.1 | Biletlər üçün əlavə satış nöqtələri yaratmaq (məs., pərakəndə ticarət müəssisələri ilə tərəfdaşlıqlar, onlayn satış kanalları). |
| | | 4.2.4.2 | Oyunlar üçün biletləri digər tədbirlərlə birləşdirmək (məs., konsertlər, şənliklər və s.). |
| | | 4.2.4.3 | Gələcək bilet satışlarını artırmaq üçün məktəb siniflərinə pulsuz biletlər təklif etmək və bu təşəbbüsü dəstəkləmək üçün şirkətlərə sponsorluq imkanını yaratmaq. |
| 4.2.5 | Stadiondan istifadə gəlirlərinin artırılması | 4.2.5.1 | Mövcud infrastrukturdan gəlir əldə etmək üçün tədbirlərin təşkil edilməsi sahəsində ixtisaslaşan müəssisələrlə əməkdaşlıq etmək |
| | | 4.2.5.2 | Oyunların keçirilmədiyi günlərdə ailə və uşaqlar üçün maskotlarla (komanda rəmzləri) tematik tədbirlər planlaşdırmaq, uşaqlar üçün kiçik turnirlər və stadionda keçirilən vaxtı artırmaq üçün digər tədbirlər təşkil etmək. |

# F – ƏSAS LAYİHƏLƏR

## 5. Peşəkar və gənclər futbolunun infrastrukturunun inkişafı

# F – 5. Peşəkar və gənclər futbolunun infrastrukturunun inkişafı (1/2)

AFFA

| Sahə | | Elementlər | Təsvir |
|---|---|---|---|
| 5.1 Milli komanda – Fiziki infrastruktur | 5.1.1 | Milli komanda infrastrukturunun əlçatanlığının artırılması | Milli komandalar və gənclərin inkişafı üçün xüsusi məşq sahələrinin, bərpa mərkəzlərinin və yerləşmə imkanlarının sayını artırmaq, oyunçuları səmərəli hazırlıq üçün zəruri resurslarla təmin etmək |
| | 5.1.2 | Milli komandanın fiziki infrastrukturunun keyfiyyətinin yaxşılaşdırılması | Mövcud obyektləri yeniləyərək milli komandaları yüksək səviyyəli resurslarla təmin etmək (o cümlədən yüksək keyfiyyətli meydançalar, müasir idman avadanlıqları və reabilitasiya mərkəzi). Vəziyyətin yaxşılaşdırılması istiqamətində atılan bu addımlar beynəlxalq standartlara cavab verən və məhsuldarlığı artıran peşəkar mühit yaradacaq. |
| 5.2 Peşəkar klublar - Fiziki infrastruktur | 5.2.1 | Peşəkar klubların fiziki infrastrukturunun əlçatanlığının artırılması | Təlim-məşq bazaları olmayan Premyer Liqa, 1-ci və 2-ci liqa komandalarının təlim-məşq bazalarının yaradılmasına dəstək olmaq, bu komandaların təlim və inkişaf üçün zəruri avadanlıqlarla təmin olunmasında köməklik göstərmək |
| | 5.2.2 | Peşəkar klubların fiziki infrastrukturunun keyfiyyətinin yaxşılaşdırılması | Peşəkar klublar tərəfindən istifadə olunan mövcud infrastrukturun keyfiyyətinin artırılmasına dəstək olmaq, təlim meydançalarını və reabilitasiya mərkəzlərinin müasirləşdirməsində dəstək olmaq |
| 5.3 Kütləvi futbol – Fiziki İnfrastruktur | 5.3.1 | Kütləvi futbol infrastrukturunun əlçatanlığının artırılması | Futbol məktəbləri və müxtəlif bölgələrdəki məktəblər üçün meydançalar, təlim sahələri və futbol sahələrini inkişaf etdirərək, kütləvi iştirakçılığı təşviq etmək. Kütləvi futbol səviyyəsində əlçatan infrastruktur daha çox gənc oyunçuların idmanla məşğul olmasına imkan verir ki, bu da gələcəkdə istedadlı oyunçuların inkişafı üçün möhkəm bir təməl qoyur. |

# F – 5. Peşəkar və gənclər futbolunun infrastrukturunun inkişafı (2/2)

AFFA

| Bölmə | Elementlər | | Təsvir |
|---|---|---|---|
| 5.4 Rəqəmsal infrastruktur – Təməl | 5.4.1 | **Əsas rəqəmsal infrastrukturun yaradılması** | AFFA daxilində məlumat paylaşımını və əməliyyat səmərəliliyini dəstəkləyən etibarlı və təhlükəsiz rəqəmsal infrastrukturu yaratmaq. Bunun üçün IT infrastrukturunu, bulud və elektron informasiya sistemlərini təkmilləşdirmək. |
| 5.5 Rəqəmsal infrastruktur – Məlumat Bazası | 5.5.1 | **İnfrastruktur üzrə məlumat bazasının yaradılması** | Ölkə üzrə bütün futbol infrastrukturunun obyektləri haqqında ətraflı məlumatları təqdim edən mərkəzləşdirilmiş məlumat bazasını (xəritəni) formalaşdırmaq. Bu baza stadionlar və meydançalar haqqında tam mənzərəni təmin edəcək, xidmət edilməyən ərazilərdə məlumat əsasında investisiyaların dəstəklənməsinə kömək edəcək, təmir və idarəetmə üçün real vaxt rejimində məlumatların yenilənməsini təmin edəcək. |
| | 5.5.2 | **Oyunçuların idarə edilməsi üzrə məlumat bazasının yaradılması** | Təlim mərkəzlərində və Futbolun İnkişaf Mərkəzində gənc oyunçuların inkişafını izləmək, oyunçu profillərinə, göstəricilərinə və inkişafına nəzarət etmək üçün məlumat bazası yaratmaq. Bu məlumat bazası oyunçuların inkişafını yaxından izləməyə, ehtiyac olduqda isə vaxtında müdaxilə etməyə imkan verəcək. |
| 5.6 Rəqəmsal infrastruktur – Proseslərin optimal-laşdırılması | 5.6.1 | **Hesabatlıq və inzibati işlər üzrə ERP sistemlərinin yaradılması** | Federasiya daxilində inzibati, maliyyə və İR proseslərini sadələşdirmək üçün ERP (Korporativ Resursların Planlanması) sistemini təkmilləşdirmək. Bu sistem səmərəliliyi artırır, hesabatlılıq və qərarvermə üçün zəruri məlumatları təmin edir. |
| 5.7 Rəqəmsal infrastruktur – – Vebsayt | 5.7.1 | **AFFA-nın rəsmi internet səhifəsinin müasirləşdirilməsi və azarkeşlərlə onlayn kanallar vasitəsilə qarşılıqlı əlaqənin fəallaşdırılması** | Rəsmi internet səhifəsinin təkmilləşdirilməsi çərçivəsində interaktiv xüsusiyyətlərə malik geymifikasiya (oyunlaşdırma) alətini əlavə etmək - məs., viktorinalar, çelenclər və azarkeşlərlə dinamik əlaqə qurmaq üçün mükafatlar. Əlavə olaraq, azarkeş icmasının oyuna yaxınlığını daha da gücləndirmək üçün oyunların nəticələrinin izlənməsi imkanlarını və statistika göstəricilərini, o cümlədən canlı yayım formatında hesab, müfəssəl statistika məlumatları və xəbərləri inteqrasiya etmək |

# F – 5. Peşəkar və gənclər futbol infrastrukturunun inkişafı

AFFA

## 5.1 Milli komanda – Fiziki infrastruktur

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 5.1.1 | **Milli komanda infrastrukturunun əlçatanlığının artırılması** | 5.1.1.1 | Bakı şəhərində gənc milli komandalar üçün Futbolun İnkişafı Mərkəzi qismində yeni təlim-hazırlıq mərkəzini yaratmaq. Bura gənclər futbolunun inkişafı üçün əsas mərkəz olacaq. |
| | | 5.1.1.2 | AFFA-nın regional bölgüsünə uyğun olaraq 8 regional mərkəz yaratmaq, əsasən mövcud infrastrukturdan istifadə edərək meydançalar, idman zalları və digər vacib infrastruktur obyektlərini təmin etmək |
| 5.1.2 | **Milli komandanın fiziki infrastrukturunun keyfiyyətinin yaxşılaşdırılması** | 5.1.2.1 | Qapalı meydança və müasir reabilitasiya mərkəzinin (məs., krioterapiya) olmaması problemini həll etmək üçün Dalğa Arenadakı mövcud infrastrukturu "A" Milli Komanda və U-21 heyəti üçün təkmilləşdirmək. |

# F – 5. Peşəkar və gənclər futbol infrastrukturunun inkişafı

AFFA

## 5.2 Peşəkar klublar - Fiziki infrastruktur

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 5.2.1 | **Peşəkar klubların fiziki infrastrukturunun əlçatanlığının artırılması** | 5.2.1.1 | Bakıda təlim-məşq infrastrukturu olmayan 10 peşəkar klub üçün və Bakıya səfər edən digər bölgə klubları tərəfindən istifadə ediləbiləcək təlim-məşq mərkəzinin inşasını təmin etmək. |
| | | 5.2.1.2 | 1-ci və 2-ci liqalarda məşq meydançaları olmayan regional klublar üçün 12 regionda təlim-məşq infrastrukturunun yaradılmasına dəstək tədbirləri həyata keçirmək |
| | | 5.2.1.3 | Premyer Liqada təlim-məşq meydançaları olmayan 4 klub üçün təlim-məşq infrastrukturunun tikintisini dəstəkləmək |
| 5.2.2 | **Peşəkar klubların fiziki infrastrukturunun keyfiyyətinin yaxşılaşdırılması** | 5.2.2.1 | Premyer Liqa klublarının 2 stadionunun UEFA Kateqoriya lisenziya tələblərinə uyğun olaraq yenilənməsinə dəstək vermək, beynəlxalq yarışların təşkil edilməsi üçün tələb olunan standartlara cavab vermələrini təmin etmək. |
| | | 5.2.2.2 | Premyer Liqa və 1-ci liqa klublarının mövcud olan, amma tələb olunan standartlara cavab verməyən təlim-məşq infrastrukturunu yeniləmək üçün əlavə meydançaların (minimum standart: 2 meydança) tikintisinə dəstək göstərmək, nəticədə klubları uyğun təlim-məşq imkanları ilə təmin etmək |

# F – 5. Peşəkar və gənclər futbol infrastrukturunun inkişafı

## 5.3 Kütləvi futbol - Fiziki infrastruktur

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 5.3.1 | **Kütləvi futbol infrastrukturunun əlçatanlığının artırılması** | 5.3.1.1 | Bütün idman məktəbləri üçün təlim-məşq infrastrukturunun əlçatanlığını təmin etmək, futbol təlim-məşq infrastrukturu olmayan 65 idman məktəbinin (UGİM[1]) 60-ı üçün tam ölçülü meydançalar, inkişaf imkanlarını yaratmaq və müntəzəm oyun vaxtını təmin etmək. |
| | | 5.3.1.2 | Futbol məşqlərinin və yarışlarının keçirilməsi üçün ölkə ərazisində mini meydançaların sayını artıraraq 400-ə çatdırmaq. Məşqlərlə və yarışlara daha geniş kütlənin cəlb olunması, habelə istedadlı oyunçuların inkişaf etdirilməsi üçün şərait yaratmaq məqsədilə hər bir meydança təxminən 10 məktəbə yaxınlıqda yerləşdirilməlidir |

1. Uşag-gənclər idman məktəbi

# F – 5. Peşəkar və gənclər futbol infrastrukturunun inkişafı

AFFA

## 5.4 Rəqəmsal infrastruktur - Təməl

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 5.4.1 | Əsas rəqəmsal infrastrukturun yaradılması | 5.4.1.1 | Bütün rəqəmsal layihələrin uğurlu olmasını təmin etmək üçün serverlərin mövcudluğu və tutumu, məlumatların idarə edilməsi prosedurları, şəbəkə infrastrukturu və standart IT avadanlıqlarının mövcudluğu kimi bütün əsas rəqəmsal infrastruktur sahələrinin diaqnostikasını aparmaq, zəruri olduğu hallarda təkmilləşdirimək. |

## 5.5 Rəqəmsal infrastruktur - Məlumat bazası

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 5.5.1 | İnfrastruktur üzrə məlumat bazasının yaradılması | 5.5.1.1 | Ölkə üzrə stadionlar və futbol meydançalarının rəqəmsal xəritəsini təqdim edən özəl platforma yaratmaq. Bu, obyektlərin yerləşməsi, vəziyyəti və əlçatanlığı haqqında məlumat vermək AFFA-nın tanınması səviyyəsini yüksəltməyə kömək edəcək. |
| | | 5.5.1.2 | Futbol üzrə e-Xəritəni yaratmaq. Stadion və meydançaların rəqəmsal xəritəsi ilə əlaqəli ictimai platforma lisenziyalı gənclər futbol məktəbləri haqqında ətraflı məlumat təqdim edəcək. Bu məlumatlara məktəblərin yerləşməsi, məşqçi profilləri, qiymətlər və infrastruktur daxildir. |
| | | 5.5.1.3 | Ölkə üzrə əsas stadionlar və təlim-məşq obyektlərində, məs., Dalğa Arena və Bayıl Arenada ot örtüyü və infrastruktura texniki xidmət texnologiyalarını tətbiq etmək üçün rəqəmsal meydança idarəçiliyi sahəsində ixtisaslaşmış təchizatçılarla əməkdaşlıq etmək. Bu texnologiyalar seçilmiş obyektlərin vəziyyətini real vaxt rejimində qiymətləndirmək məqsədilə rəqəmsal xəritə ilə birləşdiriləcək. |
| 5.5.2 | Oyunçuların idarə edilməsi üzrə məlumat bazasının yaradılması | 5.5.2.1 | Rayon mərkəzləri və resurs mərkəzlərində oyunçuların müfəssəl profillərini saxlamaq üçün istedadlı oyunçuların inkişafı üzrə platforma yaratmaq. Bu profillərdə mövqe, matç tarixçəsi, idman göstəriciləri və video görüntülər kimi məlumatlar yer alacaq. Məşqçilər bu məlumatlara çıxış imkanları ilə təmin ediləcək. |
| | | 5.5.2.2 | D&A (rəqəmsallaşma və analitika) sahəsində ixtisaslaşmış təchizatçılarla əməkdaşlıqda oyunçuların idman göstəricilərini təhlil etmək və video görüntüləri idarə etmək üçün sistem yaratmaq. Bu sistem işarələmə, təsnifləşdirmə və müəyyən bacarıq və ya matç vəziyyətlərinə asanlıqla baxmaq imkanını yaradacaq, istedadlı oyunçuların inkişafı üzrə platformanın tərkib hissəsi olaraq istifadə ediləcək. |

# F – 5. Peşəkar və gənclər futbol infrastrukturunun inkişafı

AFFA

## 5.6 Rəqəmsal infrastruktur - Proseslərinin optimallaşdırılması

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 5.6.1 | Hesabatlıq və inzibati işlər üzrə ERP sistemlərinin təkmilləşdirilməsi | 5.6.1.1 | Federasiya üçün bütün korporativ ehtiyacları qarşılayacaq daxili proqram təminatını təkmilləşdirmək. Bu sistem İR, mühasibatlıq, maliyyə, büdcə tərtibi, satınalma, mal-material ehtiyatlarının idarə edilməsi, hesabatlıq və digər vacib funksiyaları əhatə etməlidir. |

## 5.7 Rəqəmsal İnfrastruktur - Vebsayt

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 5.7.1 | AFFA-nın rəsmi internet səhifəsinin müasirləşdirilməsi və azarkeşlərlə onlayn kanallar vasitəsilə qarşılıqlı əlaqənin fəallaşdırılması | 5.7.1.1 | AFFA və peşəkar klublar üçün məhsulların satışını artırmaq məqsədilə ekosistemin iştirakçıları arasında sinerji yaradacaq birləşdirilmiş onlayn mağaza yaratmaq |
| | | 5.7.1.2 | Tarixi oyun nəticələri, statistika məlumatları, stadion məlumatları, oyunçu, məşqçi və hakimlər barədə məlumatlar daxil olmaqla, futbol ekosistemi üzrə ictimaiyyət üçün açıq məlumat bankını (bazasını) yaratmaq |
| | | 5.7.1.3 | Azarkeşlərin dinamik fəallığını təmin etmək üçün viktorinalar, çelenclər və mükafatlar kimi interaktiv xüsusiyyətləri idarə etmək məqsədilə geymifikasiya (oyunlaşdırma) alətini yaratmaq |

# F – ƏSAS LAYİHƏLƏR

## 6. İnklüzivliyin təmin edilməsi və sosial məsuliyyət

# F – 6. İnklüzivliyin təmin edilməsi və sosial məsuliyyət

| Bölmə | Elementlər | | Təsvir |
|---|---|---|---|
| 6.1 Qadın Futbolu | 6.1.1 | Futbolun tanınması səviyyəsinin yüksəldilməsi, məktəblər səviyyəsində fəallığın gücləndirilməsi | Qadın futbolunun populyarlığının artırılması istiqamətində tədbirlər, turnirlər təşkil etmək, eləcə də kütləvi futbolun imkanlarından istifadə etmək. |
| | 6.1.2 | İdman perspektivləri və alternativ karyera seçimlərinin inkişaf etdirilməsi | Gənc oyunçuları təşviq edərək, onların futbolda qalması və gənclik dövrlərində inkişaf etmələri üçün imkanlar yaratmaq. |
| | 6.1.3 | Futbolun inkişafına təkan vermək və peşəkar oyunçular üçün imkanlar yaratmaq | Qadın peşəkar futbolu ilə əlaqəli standartları artırmaq üçün liqanı inkişaf etdirmək və sponsorların dəstəyini əldə etmək |
| 6.2 Əlillər futbolu | 6.2.1 | Oyunçuların inkişafının dəstəklənməsi | Fiziki imkanları məhdud olan şəxslərə futbol oynamaq və idmana inteqrasiya olmaq üçün imkanlar yaratmaq. |
| | 6.2.2 | Əlillər futbolu üçün infrastrukturun yaradılması | Fiziki imkanları məhdud olan oyunçular üçün zəruri infrastrukturun təmin edilməsi, məşq və oyun üçün imkanların yaradılması. |
| | 6.2.3 | Əlillər futbolu üçün maliyyələşmə | Əlillər futbolunu inkişaf etdirmək üçün sponsorlarla əməkdaşlıqda maliyyə dəstəyini təmin etmək. |
| 6.3 Sosial Məsuliyyət | 6.3.1 | Cəmiyyət | Cəmiyyətdə inklüzivliyi və sağlamlığı təşviq etmək, eyni zamanda həssas təbəqələrə dəstək göstərmək. |
| | 6.3.2 | Ətraf mühit | Karbonsuzlaşdırma təşəbbüslərini həyata keçirməklə ekoloji dayanıqlığı gücləndirmək. |

# F – 6. İnklüzivliyin təmin edilməsi və sosial məsuliyyət

## 6.1 Qadın Futbolu

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| 6.1.1 | **Futbolun tanınması səviyyəsinin yüksəldilməsi, məktəblər səviyyəsində fəallığın gücləndirilməsi** | 6.1.1.1 | Kişi futbolunun populyarlığından istifadə edərək, beynəlxalq klublarla əməkdaşlıq etmək və qadın futbolundan başlayıb kişi futbolu ilə davam edərək ardıcıl matçlar təşkil etmək. |
| | | 6.1.1.2 | Qadın futboluna ölkə daxilində və xaricində diqqəti cəlb etmək üçün beynəlxalq qadın turnirlərini (U20 Dünya Çempionatı, U19 Avropa Çempionatı) təşkil etmək. |
| | | 6.1.1.3 | "Məktəblərdə Futbol" proqramının regional əhatəliliyini genişləndirərək, kütləvi futbola daha çox şaxələndirmək və qadın futbolunun tanınmasını məktəb səviyyəsində genişləndirmək. |
| 6.1.2 | **İdman perspektivləri və alternativ karyera seçimlərinin inkişaf etdirilməsi** | 6.1.2.1 | Milli komandaya aparan sistemləşdirilmiş inkişaf yolunu yaratmaq, idman məktəbləri və regional mərkəzlərdən istifadə edərək istedadlı oyunçuların axınını təmin etmək. |
| | | 6.1.2.2 | Qadın məşqçilərinin sistemləşdirilmiş inkişaf yolunun bir hissəsi olmasını təmin etmək üçün onlara UEFA Məşqçi Lisenziyalarını əldə etməkdə maliyyə dəstəyini göstərmək. |
| | | 6.1.2.3 | Gənclər komandalarında oyunçuların idmanda qalmasını artırmaq üçün təhsil təqaüdlərini təqdim etmək, peşəkar oyunçuları daha yaxşı dəstəkləmək məqsədilə ali təhsil müəssisələri ilə əməkdaşlıq etmək. |
| 6.1.3 | **Oyunçuların təşviqatı üzrə peşəkar strukturun yaradılması** | 6.1.3.1 | Qadın futbolunun federasiya səviyyəsində inkişafı üçün xüsusi maliyyə dəstəyini təmin etmək məqsədilə sponsorla əməkdaşlıq etmək, qadınların işlə təminatı mövzusunda xüsusi missiyaya sahib olan şirkətləri nəzərə almaq. |
| | | 6.1.3.2 | Bütün Premyer Liqa klublarının ya qadın komandası yaratmasını, ya da bir qadın komandası ilə birbaşa əlaqəli olmasını təşviq etmək. Bu işlər liqanın lisenziyalaşdırma tələblərinə uyğun olaraq təşkil edilməlidir |
| | | 6.1.3.3 | Qadın liqasının adından istifadə hüquqları üçün sponsorluq sazişi bağlamaq, liqanın gəlirlərinin bölgüsü vasitəsilə qadın klublarını maliyyələşdirmək |
| | | 6.1.3.4 | Yerli qadın turnirlərini təşkil etmək, onları YouTube və digər rəqəmsal kanallar vasitəsilə yayımlamaq, yerli media platformalarında peşəkar qadın liqasının inkişafını istiqamətində tədbirlər görmək. |
| | | 6.1.3.5 | Peşəkar oyunçuların karyeralarını daha da dəstəkləmək məqsədilə əlavə bir U20 gənc milli komandası yaratmaq. |

# F – 6. İnklüzivliyin təmin edilməsi və sosial məsuliyyət

## 6.2 Əlillər futbolu

| Elementlər | | Əsas layihələr | |
|---|---|---|---|
| **6.2.1** | **Oyunçuların inkişafının dəstəklənməsi** | 6.2.1.1 | Amputant futbolunu xəstəxanalar, müharibə veteranları və reabilitasiya mərkəzlərindəki fiziki reabilitasiya proqramlarına daxil etmək. |
| | | 6.2.1.2 | Eşitmə və görmə qabiliyyəti məhdud olan təhsilalanlar üçün futbola qatılmalarına imkan verən, xüsusi olaraq bu təhsilalanlar üçün məktəblərdə kütləvi futbol proqramı yaratmaq. |
| | | 6.2.1.3 | Əlillər futbolu və fiziki imkanları məhdud olan oyunçuların təlimi üzrə ixtisaslaşmış məşqçiləri yetişdirmək üçün beynəlxalq əlillər futbolu sahəsində məşqçi proqramlarına maliyyə dəstəyini vermək. |
| **6.2.2** | **Əlillər futbolu üçün infrastrukturun yaradılması** | 6.2.2.1 | Fiziki imkanları məhdud olan təhsilalanlar (o cümlədən görmə qabiliyyəti məhdud olan təhsilalanlar) üçün aidiyyati məktəblərdə xüsusi əlillər futbolu meydançalarını inşa etmək. |
| **6.2.3** | **Əlillər futbolu üçün maliyyələşmə** | 6.2.3.1 | Şirkətlərlə əməkdaşlıqda onların sosial məsuliyyət proqramları çərçivəsində əlillər futbolunun inkişafını maliyyələşdirmək. |

# F – 6. İnklüzivliyin təmin edilməsi və sosial məsuliyyət

AFFA

## 6.3 Sosial məsuliyyət

| Elementlər | | Əsas layihələr |
|---|---|---|
| 6.3.1 Cəmiyyət | 6.3.1.1 | Həssas təbəqələr üçün ödənişsiz futbol dərslərini təşkil etmək məqsədilə xeyriyyə təşkilatları ilə əməkdaşlıq etmək. |
| | 6.3.1.2 | Xeyriyyə oyunlarını təşkil edərək, bilet satışlarından əldə olunan gəliri həssas təbəqələrə yardım edən xeyriyyə təşkilatlarına bağışlamaq. |
| | 6.3.1.3 | Premyer Liqa klubları üçün xidmət günü kampaniyasını yaratmaq, oyunçulardan yerli xeyriyyə təşkilatlarında, qida banklarında və icma mərkəzlərində könüllü fəaliyyət göstərmək üçün öhdəliklərin götürülməsini təmin etmək. |
| | 6.3.1.4 | Sosial media şəbəkələri, oyun günü tədbirlər, həmçinin psixoloji sağlamlıq sahəsində fəaliyyət göstərən mütəxəssislərlə əməkdaşlıq vasitəsilə azarkeşlər və oyunçular üçün maarifləndirmə aksiyalarını və ya seminarları təşkil etmək |

AFFA

## 6.3 Sosial məsuliyyət

| Elementlər | Əsas layihələr | |
|---|---|---|
| 6.3.2 Ətraf mühit | 6.3.2.1 | İnfrastrukturun enerji səmərəliliyini artırmaq – günəş panellərini quraşdırmaq, təkrar emal olunmuş materiallardan istifadə etmək və enerji səmərəli LED işıqlandırma sistemlərinə keçmək. |
| | 6.3.2.2 | Nəqliyyatda karbon tullantıları aradan qaldırmaq – elektrikli nəqliyyat vasitələrinə keçid etmək, velosiped zolaqlarını yaratmaq və stadionlarda elektrikli avtomobillər üçün şarj (enerji doldurma) məntəqələrini quraşdırmaq. |
| | 6.3.2.3 | Milli yaşıllaşdırma kampaniyasını həyata keçirmək – milli komandanın hər qələbəsi, klubun əhəmiyyətli bir mərhələsi və ya cəmiyyətin təşəbbüsü ilə əlaqədar olaraq ağac əkmə aksiyası. |
| | 6.3.2.4 | Dayanıqlıq təşəbbüslərini təşviq etmək – görkəmli simaları rol modeli olaraq cəlb etmək və ağac əkmə, təkrar emal proqramları və maarifləndirmə kampaniyalarını həyata keçirmək. |
| | 6.3.2.5 | Futbol tədbirlərindən istifadə edərək məlumatlılığı artırmaq – maarifləndirici posterlərini yerləşdirmək, sosial media kampaniyalarını təşkil etmək, oyunlardan əvvəl dayanıqlılıq mövzusuna həsr olunmuş çıxışlar etmək. |
| | 6.3.2.6 | Oyun günlərində stadiona yollanan azarkeşlər üçün ictimai nəqliyyatın marşrut və cədvəllərini yaxşılaşdırmaq, endirimli və ya paketli biletlər təklif etmək üçün yerli qurumlarla əməkdaşlıq etmək. |

# F - Təşəbbüslər

## İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası

# F - İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası

AFFA

**İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası**

| Elementlər | | Təsvir |
|---|---|---|
| A | **AFFA-nın təşkilati strukturu** | Yeni struktur bölmələrini yaratmaqla AFFA-nın institusional potensialını və imkanlarını gücləndirmək. Yeni yaradılacaq departamentlər futbolun strateji inkişafının dəstəklənməsi istiqamətində fəaliyyət göstərməlidir. |
| B | **Normativ hüquqi baza** | Futbolun hazırkı və gələcək sağlamlığı üçün əsaslar təşkil edəcək Azərbaycan futbolunu reqlamentləşdirən tənzimləyici çərçivəni yaratmaq |
| C | **Üzvlərlə münasibətlər** | Bütün regionlardan (rayonlardan), habelə futbolun müxtəlif sahələrindən olan maraqlı tərəflərlə qarşılıqlı əlaqə formatında işləməklə futbolun respublika səviyyəsində effektiv fəaliyyətini təşviq etmək |
| D | **Dövlət qurumları ilə qarşılıqlı əlaqə** | Dövlət qurumları ilə effektiv qarşılıqlı əlaqə çərçivəsində infrastruktur, bütövlülük, peşəkar yarışlar və gənclərin inkişafı ilə bağlı nəticə və göstəricilərin yaxşılaşdırılması |

# F - İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası

## İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası

| Elementlər | | Təşəbbüslər | |
|---|---|---|---|
| A | AFFA-nın təşkilati strukturu | A.1 | AFFA-nın mövcudluğunu və fəaliyyətlərini tənzimləyən hüquqi sənədləri nəzərdən keçirmək, təkmilləşdirmək və əsas maraqlı tərəfləri bu sənədlər barədə maarifləndirmək, təşkilatın məsuliyyətləri və prosesləri üzrə uyğunluğu, qanunvericiliklə müəyyən edilmiş öhdəliklərin icrasını və aydınlığını təmin etmək. |
| | | A.2 | Səmərəliliyi, hesabatlılığı və təşkilatın məqsədləri ilə uyğunluğu artırmaq üçün təşkilat daxilində qərarvermə proseslərini reqlamentləşdirən strukturları və prosedurları təhlil edərək təkmilləşdirmək. |
| | | A.3 | AFFA-nın strukturunda uzunmüddətli inkişaf, yenilik və təşkilatın məqsədləri ilə uyğunluğu təmin edəcək Strateji İnkişaf Departamentini təsis etmək. |
| | | A.4 | AFFA-nın strukturunda Danışılmış oyunlarla mübarizə (İntegrity) departamentini təsis etmək. |
| | | A.5 | AFFA-nın strukturunda Tibbi Reabilitasiya departamenti gücləndirmək və daha da genişləndirmək. |
| | | A.6 | AFFA-nın strukturunda sosial və ətraf mühit dayanıqlığı departamentini təsis etmək. |
| | | A.7 | Oyun rəsmilərinin təlimi, inkişafı və göstəricilərinin qiymətləndirilməsi üçün aydın məsuliyyətin müəyyən edilməsi, büdcənin ayrılması, yüksək hakimlik standartlarını və onların davamlı inkişafını təmin etmək. |

# F - İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası

## İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası

| Elementlər | | Təşəbbüslər | |
|---|---|---|---|
| B | **Normativ hüquqi baza** | B.1 | AFFA-nın normativ hüquqi sənədlərini mütəmadi olaraq nəzərdən keçirmək və yeniləmək, beynəlxalq futbol qurumlarının qaydaları ilə, eləcə də milli və regional hüquqi tələblərlə tam uyğunluğunu təmin etmək, tənzimləyici çərçivənin tələblərinə uyğunluğu, ardıcıllığı və həm qlobal standartlara, həm də yerli ehtiyaclara uyğunlaşma qabiliyyətini artırmaq. |
| | | B.2 | Futbolda Tibbi Xidmətlərin Kompleks İdarə Edilməsi Çərçivəsini yaratmaq, bütün yaş qruplarındakı oyunçuların sağlamlığını və rifahını təmin etmək məqsədilə müvafiq dövlət qurumları ilə əməkdaşlıq etmək. |
| | | B.3 | Ölkə üzrə müxtəlif obyektlərin ölçüləri və standartlarına uyğun kompleks futbol infrastrukturu üzrə reqlamenti formalaşdırmaq. Bu reqlamentlə UEFA tələblərinə uyğun olaraq stadionlar və təlim-məşq infrastrukturu üçün müvafiq standartları müəyyən ediləcək. |
| | | B.4 | Oyunçuların qeydiyyatı üzrə bütün yaş qruplarını, komandaları və yarış səviyyələrini əhatə edən inklüziv və kompleks qaydaları hazırlamaq. Bu sistem oyunçuların qeydiyyatını asanlaşdıracaq, milli və beynəlxalq standartlara uyğunluğu təmin edəcək və vahid mərkəzləşdirilmiş sistemin daxilində idarə olunacaq. |
| | | B.5 | Təşkilatda insan resursları (İR) funksiyalarını və müqavilələri idarə etmək üçün mərkəzləşdirilmiş elektron informasiya sistemini hazırlamaq. Bu sistem İR proseslərini sadələşdirəcək, müqavilələrin idarə olunmasını asanlaşdıracaq və digər əsas sistemlərlə (məs., əməkhaqqı, maliyyə, hüquq) inteqrasiya olunacaq. |

# F - İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası

## İdarəetmə sistemi, liderlik və Strategiyanın icrası

| Əsas elementlər | | Təşəbbüslər | |
|---|---|---|---|
| C | Üzvlərlə münasibətlər | C.1 | Regional federasiyalar üçün mərkəzləşdirilməmiş standartların tətbiqini və yerli əməliyyat idarəçiliyinin çevikliyini balanslandırılmasını təmin edən mərkəzləşdirilməmiş struktur yaratmaq. Bu struktur federasiyada davamlılığın qorunmasını təmin edəcək, eyni zamanda regional ehtiyaclara uyğunlaşmış yanaşmaların tətbiqinə imkan verəcəkdir. |
| | | C.2 | Ölkədə qadın futbolu üçün mövcud idarəetmə modelini ətraflı şəkildə nəzərdən keçirmək, təkmilləşmə imkanlarını müəyyənləşdirmək və idmanın bütün səviyyələrdə inkişafını dəstəkləmək üçün səmərəliliyi artıracaq zəruri dəyişiklikləri həyata keçirmək. |
| | | C.3 | Üzv federasiyalarla birlikdə fəaliyyətdə təkrarçılıq hallarını aradan qaldırmaq, əməliyyatların effektivliyini gücləndirmək. regional təşəbbüsləri dəstəkləmək və gücləndirmək üçün AFFA-nın resurslarından istifadənin səmərəliliyini maksimum həddə çatdırmaq |
| | | C.4 | Premyer Liqaya daxil olmayan klubların təmsil edilməsi üzrə sistemləşdirilmiş çərçivəni yaratmaq, milli futbolun bütün pillələrinin səs hüququna sahib olmalarını, mənafelərinin isə qərarların qəbul edilməsi prosesində effektiv şəkildə təmsil olunmalarını təmin etmək |
| D | Dövlət qurumları ilə qarşılıqlı əlaqə | D.1 | İdman sferasında şəffaflığı və danışılmış oyunlarla mübarizəni gücləndirmək məqsədilə dövlət orqanları, futbol təşkilatları və mərc qurumlarının nümayəndələrindən ibarət işçi qrup yaratmaqla əməkdaşlığı təşviq etmək. |
| | | D.2 | Hökumət, yerli hakimiyyət orqanları və klublarla əməkdaşlıqda infrastrukturun inkişafını dəstəkləmək, yüksək keyfiyyətli infrastrukturun yaradılmasını təmin etmək. |
| | | D.3 | Hərbi xidmət qurumları və ali təhsil müəssisələri ilə əməkdaşlıqda yüksək potensiallı gənc oyunçular üçün futbolda inkişaf yollarını yaratmaq, onlara idman inkişafı ilə yanaşı, təhsil və karyera inkişafı üçün imkanları təqdim etmək. |

SON